Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14 MART 2019-cu il

№ 49 (3947)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# TÜRKİYƏNİN RUSİYADAN MƏŞHUR S-400 SİSTEMLƏRİNİN ALIŞ PROSESİNDƏ AZƏRBAYCANA UNİKAL ROL AYRILA BİLƏR

■ səh. 8 ■

Prezidentin problemli kreditlər barədə qərarı 17 min manatadək krediti olan borclulara da qapı açdı...

■ səh. 10 ■

Hərbi təlimlərin Ermənistandakı xofu - "Bakı nümayişkaranə hücum təlimlərini boş yerə keçirmir"

■ səh. 9 ■

Mətbuat Şurasının qəzet yayımı ilə bağlı vəziyyəti öyrənən monitorinq qrupunun fəaliyyəti bərpa edildi

■ səh. 2 ■

Ermənistan Təhlükəsizlik Şurasının Qarabağ iclası hakimiyyəti parçaladı - Paşinyan əleyhinə Sarkisyanın komandası formalaşır

■ səh. 6 ■

Üç yaşa qədər uşaqlar üçün də müavinətin artırılması gündəmdə...

■ səh. 10 ■

Abşeronda tarixi türk şəhidlərinə abidə...

■ səh. 4 ■

İsrafçı toy adətlərimizə biri də əlavə olunur - "ciyər axşamı"ndan narazılıq böyüyür

■ səh. 15 ■



## Rusiya XİN-dəki ermənilərin Azərbaycana qarşı misilsiz yeni təxribatı - milyonlarla rus turisti bir ovuc erməniyə qurban verilir...

■ səh. 5 ■



Mehriban Əliyevanın səfəri, Fransa hakimiyyətində Azərbaycanmeyilli qüvvələrin güclənən üstünlüyü - ermənipərəst çevrə daralır...

■ səh. 3 ■

Paşinyan uğursuz avantüralardan yorulmayıb, yeni təxribat - Azərbaycan xalqı ilə dialoq...

■ səh. 6 ■



Azərbaycan-İran sərhədində intensivləşən silahlı sərhəd pozuculuğunda erməni lobbi dairələrinin izi...

■ səh. 4 ■

Elçin Babayevin rektor təyinatına opponentlik edənlərin iki dözümsüz arqumenti...

■ səh. 7 ■



Rusiya-Gürcüstan razılaşması Ermənistanın qaz problemini daha da kəskinləşdirə bilər...

■ səh. 5 ■



Ermənistan TŞ-nin Xankəndi iclası Paşinyan-Sarkisyan düşmənçiliyini aşkar üzə çıxardı...

■ səh. 8 ■



İnsan orqanlarının köçürülməsinə dair yeni qanunda nələr olsun...

■ səh. 13 ■



Evdar qadınlar üçün 120 manat tibbi sığorta haqqı...

■ səh. 13 ■





# Prezident İlham Əliyev: "Qlobal Bakı Forumu dünyada mühüm beynəlxalq platformaya çevrilib"

**Prezident İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğulayıb. Xanım Vayra Vike-Freyberqa bildirib ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlət başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd edib və bunu Nizami Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirib. Eyni zamanda, Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini deyib və bu Forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd edib. Dövlət başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğulayıb.



# Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papası Fransiskə təbrik məktubu ünvanlayıb

**Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papası Fransiskə Tacqoyma gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.**

Məktubda Müqəddəs Taxt-Tacla Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.

## Müdafiə naziri ön xətt bölmələrində...

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olub.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, nazirə əməliyyat şəraitinin vəziyyəti barədə məruzə edilib. General-polkovnik Z.Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib. Bölmələrdəki şəraitlə tanış olan Müdafiə naziri şəxsi heyət üçün yeni inşa edilən əsgər yataqxanası, silah otağı, ideoloji otaq, yeməkxana, məişət otağı, hamam, əşya anbarı, eləcə də digər xidməti obyektlərdən ibarət olan yaşayış kompleksinin açılışında iştirak edib. Görülən işlərlə maraqlanan general-polkovnik Z.Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin dövlətin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini xüsusi vurğulayıb. Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb. Sonra nazir cəbhəboyu zonada yerləşən kəndlərdən birində yerli sakinlərlə görüşərək, əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə yaşayış məntəqələrimizin müdafiəsi barədə söhbət edib.

# Mətbuat Şurasının qəzet yayımı ilə bağlı vəziyyəti öyrənən monitorinq qrupunun fəaliyyəti bərpa edildi




**Azərbaycan Mətbuat Şurasında qəzet yayımı ilə bağlı hazırkı vəziyyət müzakirə olunub.**

Çıxış edənlər bildiriblər ki, şəhərin müxtəlif yerlərindəki köşklərin heç də hamısı təyinatı üzrə istifadə edilmir. Onların bəzilərində çox məhdud sayda qəzet olur. Əsasən digər məhsullar satılır. Nəticədə qəzetə maraq azalır, redaksiyaların maddi durumu pisləşir. Paytaxtla yanaşı, mərkəzdənkənar yerlərdəki köşklər də tələblər səviyyəsindən aşağıdır.

İclasda, həmçinin, Bakı Metropoliteninin stansiyalarında, avtobus dayanacaqlarında, Beynəlxalq avtovağzalda və əhalinin sıx toplaşdığı digər yerlərdə qəzet satışı, eldə yayım işinin yaxşılaşdırılmasına ehtiyacın duyulduğu vurğulanıb.

Toplantıda qəzet yayımı ilə bağlı vəziyyətin detallarının öyrənilməsinin zəruriliyi önə çəkilib. Bu məqsədlə MŞ-nin vaxtilə mövcud olmuş monitorinq qrupunun fəaliyyəti bərpa olunub. Martın 14-dən işə başlayacaq qrupun əldə etdiyi nəticələr Şuranın Katibliyinə təqdim olunacaq və qruplaşdırılacaq.

Məsələ Mətbuat Şurasının İdarə Heyətində kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirakı ilə geniş müzakirə olunacaq. Ümumən qəzet yayımı ilə bağlı MŞ adından aidiyyəti qurumlara müraciətin ünvanlanması nəzərdə tutulur.

**Aydın Quliyev Bakı şəhəri 11 saylı poliklinikanın baş həkimi Nəriman Məmmədova anası Həmidə xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

**Azərbaycan müstəqillik əldə etdikdən sonra ən yaxın münasibət qurduğu ölkələrdən biri də məhz Fransa olub. Fransanın bütün prezidentləri ilə Azərbaycan rəhbərliyinin yaxşı münasibətləri olub. Məhz həmin qarşılıqlı və səmərəli əlaqələrin fonunda, Fransa rəhbərliyi ölkələrində olan güclü erməni diasporunun təzyiqlərinə məhəl qoymadan ölkəmizlə Ermənistan arasında balanslı siyasət yürüdüb.**

# Mehriban Əliyevanın səfəri, Fransa hakimiyyətində Azərbaycanmeylli qüvvələrin güclənən üstünlüyü - ermənipərəst çevrə daralır...

Hətta elə məqamlar olub ki, Fransanın bizə qarşı daha təəssübkeş mövqeyinin şahidi olmuşuq. Fransa ilə əlaqələrin möhkəmlənməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərdiyi xidmətlər danılmazdır. Təsadüfi deyil ki, Mehriban xanım məhz həmin xidmətlərinə görə Fransanın ən ali mükafatları ilə təltif edilib. Etiraf etməliyik ki, Emmanuel Makronun Fransanın Prezidenti seçilməsindən sonra həmin ölkənin siyasətində Azərbaycanın maraqlıarı ilə uzlaşmayan bəzi detallar nəzərə çarpmağa başladı. Bura heç də Ermənistanın imici ilə uzlaşmayan Frankofoniya adlı festivalın məhz İrəvanda keçirilməsini, həmin festivalda iştirak edən prezidentin özündən əvvəlki xələflərinin siyasətinə uyğun olmayaraq regiona etdiyi səfər çərçivəsində yalnız Ermənistanı ziyarət etməklə kifayətlənməsini, ATƏT-in Minsk Qrupunun üzvü və həmsədrlərindən biri olan ölkənin rəhbəri kimi münaqişə tərəfləri arasındakı balans prinsipini qorumayaraq, Bakıya səfər etməkdən imtinasını və onun bu il də Ermənistana səfər edəcəyi ilə bağlı verdiyi açıqlamanı xatırlada bilərik.

Bütün bunlara baxmayaraq, biz Fransanın hakim siyasi elitasında Azərbaycanla bağlı bir xoşməramlı cərəyanın olduğunu görürük. Biz bunu da anlayırıq ki, Fransada kimin prezident seçilməsindən asılı olmayaraq, hakimiyyətə təsir etmək gücündə olan erməni lobbisi mövcuddur. Həmin lobbinin təsirinə düşən dairələr bəzən hökumətin kursunu da İrəvana doğru yönəltməyə çalışırlar. Amma ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Fransaya son səfərinin qrafikinə, keçirdiyi görüşlərə nəzər salmaq kifayətdir ki, həmin ölkədəki erməni lobbisinin təsir imkanlarının zəiflədiyini sezəsən. Bunun üçün xanım Əliyevanın Fransada keçirdiyi görüşlərə və əldə olunan razılaşmalara diqqət etmək lazımdır. Xatırladaq ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti M.Əliyevanın Fransaya səfəri çərçivəsində həmin ölkənin Baş naziri Eduard Filip ilə görüşü olub. Fransanın Baş naziri ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirib və əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu deyib. Fransanın Baş naziri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirib. Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını deyib, bu şirkətlərin Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğulayıb.

Birinci vitse-prezident M.Əliyeva ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirib, bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu deyən M.Əliyeva Azərbaycanda 59 fransız şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb və fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırıb. Azərbaycandakı iqtisadi inkişaf proseslərindən danışan M.Əliyeva ölkəmizin Dünya Bankının "Doing Business" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasında olduğunu bildirib. Azərbaycanın Birinci vitse-prezidenti bu il hökumətlərarası komissiyanın toplantısının keçirilməsinin önəmini vurğulayıb. Humanitar, mədəniyyət, elm sahələrində əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirib ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.



Görüşdən sonra Birinci vitse-prezident M.Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirilib.

Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşü olub.

Nazir Brüno Lömer Birinci vitse-prezident M.Əliyevanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində mühüm rolu olduğunu bildirib. Birlikdə işləməyə hazır olduqlarını qeyd edən nazir Brüno Lömer deyib ki, Fransa yeni texnologiyalar sahəsində ölkəmizə töhfələr verə bilər. "Total"ın Azərbaycanda fəal rol oynadığını bildirən fransalı nazir nəqliyyat, kənd təsərrüfatı sahələrində də təcrübələrini bölüşə biləcəklərini qeyd edib.

Sonra M.Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyesterin müşayiətilə Parisin Orsey muzeyini ziyarət edib.

M.Əliyevanın Fransa Respublikası Milli Assambleyasının sədri Rişar Ferran ilə də görüşü olub.

Ən diqqətçəkən məqamlardan biri də budur ki, Birinci vitse-prezidentin Yelisey sarayında Fransanın birinci xanımı Brijit Makron ilə də görüşü olub. Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Azərbaycanın Birinci vitse-prezidenti M.Əliyevanın Parisə səfərinin əlaqələrin inkişafına mühüm töhfə verəcəyi bildirilib. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparılıb, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olunub, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirilib. M.Əliyevanın rəhbərliyi ilə müxtəlif dövlərlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulanıb.

Birinci vitse-prezident M.Əliyeva Parisdə Fransa Respublikasının sabiq prezidenti Nikola Sarkozi ilə də görüşüb.

M.Əliyeva martın 12-də Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

Fransa Respublikasında səfəri çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti M.Əliyeva işgüzar görüşlər də keçirib. "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild, Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat, "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə də fikir mübadiləsi aparılıb.

Mehriban xanımın keçirdiyi görüşlər, imzaladığı müqavilələrdən görünür ki, Fransa hakimiyyətində Azərbaycanla bağlı siyasətdə yalnız erməni lobbisinin yürütdüyü xətt nəzərə çarpmır. Eyni zamanda, ölkəmizlə münasibətlərin inkişafında maraqlı olan siyasi elitanın olduğu görünür. Hətta tam məsuliyyətilə deyə bilərik ki, bu məsələdə erməni lobbisi Azərbaycanı sevənlərə, bizimlə daha yaxından əlaqə yaratmaq istəyən hakimiyyət təmsilçilərinə uduzur. Fransanın biznes dairələrinin də erməni lobbisinin siyasətinə dəstək vermədiyi aydın şəkildə nəzərə çarpır. Çünki onlar anlayırlar ki, belə olmayacağı təqdirdə Azərbaycanda iş qurmuş 59 Fransa şirkətinin taleyi naməlum olar. Bu pressinq Fransadakı erməni lobbisinin bir qədər də dalana dirəmiş olur. Aydın şəkildə göründü ki, M.Əliyevanın Fransa səfəri ölkələrimiz arasındakı münasibətlərin bundan sonra daha uğurla inkişaf etməsi üçün ciddi zəmin yaradacaq.

Müşahidələr Fransa hakimiyyətində Ermənistanyönümlü cərəyanla yanaşı, bundan daha güclü Azərbaycanyönümlü cərəyanın da olduğunu göstərir. Görünür ki, Azərbaycanyönümlü dövlət cərəyanı rəsmi qurumlardan başqa, güclü biznes-maliyyə dairələri ilə də təmsil olunur. Bu mənada, Birinci vitse-prezident M.Əliyevanın Fransadakı görüşləri konkret nəticələrlə bərabər, bu ölkədəki Azərbaycanyönümlü hakimiyyət kəsiminin mövqeyinin daha da güclənməsinə əhəmiyyətli təsir göstərə bilər.

*Məhəmmədəli QƏRİBLİ*

**Son bir neçə gün ərzində Azərbaycan-İran sərhədinin müxtəlif istiqamətlərində iki silahlı insident baş verib. Daha doğrusu, dövlət sərhədini pozmaq istəyən qaçaqmalçılar sərhəd naryadlarına silahlı hücum ediblər. Birinci hadisə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Fizuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd zamanı baş verib.**

# Azərbaycan-İran sərhədində intensivləşən silahlı sərhəd pozuculuğunda erməni lobbi dairələrinin izi...



DSX-dan verilən məlumata əsasən, sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunub və qarşısı alınıb.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilib. Baş vermiş atışma zamanı sərhəd naryadının başçısı, Daşkəsən rayonundan həqiqi hərbi xidmətə çağırılmış kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu sinəsindən güllə yaraları alıb, sərhəd naryadının üzvü, Siyəzən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu əlindən yaralanıb. Hər iki sərhədçi dərhal hərbi hospitala təxliyyə olunsa da, kiçik çavuş S.Məmmədovun həyatını xilas etmək mümkün olmayıb.

Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçıblar. Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər vəzifəli şəxslər əraziyə gəlib, hadisə yerinə baxış keçirib, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar verib. Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti dövlət sərhədini mühafizə edərkən qəhrəmancasına həlak olmuş kiçik çavuş S.Məmmədovun atası ilə görüşüb və başsağlığı verib.

Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu (ölümündən sonra) və əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu xidməti vəzifələrinin icrasında göstərdikləri şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunublar.

İkinci hadisə isə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Yardımlı rayonunun Ostair kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində baş verib. Sərhəd naryadı tərəfindən İran ərazisindən Azərbaycan istiqamətində hərəkət edən 6 nəfər silahlı naməlum şəxs müşahidə olunub. Naryad tərəfindən "Dayan" əmri verilsə də, sərhəd pozucuları əmrə tabe olmayaraq sərhəd naryadına qarşı odlu silahdan atəş açıblar. Bu zaman qanunauyğun olaraq silah tətbiq olunub və sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə yerində vəfat edib. Digəri isə əllərindəki yükləri ataraq geri qaçıb. Hadisə barədə İran sərhədçilərinə məlumat verilib.

Əraziyə baxış zamanı 4 ədəd bağlamada külli miqdarda heroin və tiryək növündə narkotik vasitə, külli miqdarda güclü təsirli psixotrop maddə, 1 ədəd ov tüfəngi, 6 ədəd 12 mm çaplı ov tüfənginin patronları və gilizlər aşkar olunub.

Qeyd edək ki, iki ölkə arasındakı dövlət sərhədində pozuntu halları olur. Bu danılmazdır. Ancaq bir neçə gün ərzində sərhədin müxtəlif ərazilərində sərhədçilərimizə olunan silahlı basqın halının olması bir çox şübhələrin meydana çıxmasına əsas yaradır. Xüsusilə də bu hadisənin Paşinyanın İrana reallaşan uğursuz səfərindən sonraya təsadüf etməsi maraqlı görünür. Xatırladaq ki, Paşinyandan sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun da qonşu ölkəyə səfəri reallaşdı. O, İranın ali rəhbərliyi tərəfindən çox yüksək səviyyədə qarşılandı. Hətta İranın ən ali rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinə dair bəyanatla çıxış etdi. Bununla da Ermənistan faktiki olaraq İrandan diplomatik zərbə almış oldu. Sərhəddə baş verən insidentlərin Azərbaycan-İran münasibətlərini pozmaqda maraqlı olan üçüncü qüvvə, konkret olaraq Ermənistan tərəfindən təşkil edildiyini mümkün saymaq olarmı?

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov qəzetimizə bildirdi ki, bu variant da istisna olunmur: "Ancaq hesab edirəm ki, sərhəd pozucularının hansı ölkədən keçdikləri və ya hara keçmək istədikləri də bu məsələdə məsuliyyət dərəcəsini müəyyən edir. Faktiki olaraq, İran-Azərbaycan sərhədi pozulub. Bunun qarşısını almaq hər iki ölkə sərhədçilərinin borcudur. Amma maraqlıdır ki, hücum da məhz bizim sərhəd naryadlarına olub. Nəticədə bir əsgərimiz şəhid olub. Bu hadisənin sərhədə aid olan tərəfidir. Amma belə halların intensivləşməsi ciddi şübhələrə əsas verir və burada erməni izinin olması da istisna edilmir. Bilirsiniz ki, ermənilərin adı beynəlxalq narkotik mafiyası ilə sıx əlaqədə hallanır. İşğal altında olan ərazilərimizin bir hissəsi İranla sərhədə düşür. Nəzarətdən kənarda qalan həmin ərazilərdən ermənilər narkotiklərin qanunsuz dövriyyəsi marşrutu kimi istifadə edirlər. Bu baxımdan, ermənilərin sərhəddən deyilən məqsədlə istifadə etməsi faktdır. Sərhədimizdə baş verən insidentdən sonra yayılan fotolardan göründü ki, qaçaqmalçıların atıb qaçdıqları malların çoxu narkotiklərdən və silahdan ibarət olub. Hadisənin baş verdiyi dönəm də onu deməyə əsas verir ki, burada erməni izi ola bilər. Onlar öz təsirləri altına saldıqları narkotik alverçilərini həmin istiqamətə yönləndirə bilərlər. Məqsəd də iki ölkə arasında gərginliyin yaradılmasıdır. Hər halda, İran tərəfi də bu məsələnin ətraflı araşdırılmasında maraqlı olmalıdır. Cinayəti törədib İrana qaçan narkotacirlərin kimliyi müəyyənləşməli, onlarla aparılan filtrasiya tədbirlərində bu ehtimal ciddi araşdırılmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Erməni daşnaklarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğınlar tariximizin hər zaman qanayan yarasıdır. 101 il bundan əvvəl, yəni 1918-ci ildə erməni daşnakları, cinayətkar qrupları silahlanaraq respublikamızın bütün bölgələrində, o cümlədən də Bakı şəhərində azərbaycanlılara qarşı tarixdə analoqu olmayan qətliamlar həyata keçiriblər.**

*"Digahda türk şəhidinin məzarı üzərində abidənin ucaldılması Azərbaycan-Türkiyə qardaşlığının, müştərək hərbi əməkdaşlıq tarixinin bir simvoludur"*

# Abşeronda tarixi türk şəhidlərinə abidə...

## *Firdovsiyyə Əhmədova: "Bu abidənin siyasi, tarixi və mənəvi əhəmiyyəti çox böyükdür"*

Bakının, o cümlədən də digər yaşayış məntəqələrimizin erməni silahlı birləşmələrindən xilas edilməsində general-mayor Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun çox böyük rolu olub. Qafqaz İslam Ordusunun onlarla əsgəri ermənilərə qarşı mübarizədə şəhid olublar. Azərbaycan xalqı hər zaman o şəhidlərin xatirəsini əziz tutub və onların ruhlarını böyük ehtiramla anıb.

Məlum olduğu kimi, 1918-ci ildə general-mayor Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun erməni-rus işğalçılarına qarşı apardığı döyüşlərdə şəhid olan və Abşeron rayonunun Digah qəsəbəsindəki qəbiristanlığında dəfn edilən naməlum türk əsgərlərinin şərəfinə anım abidəsi inşa olunur. Abşeron Rayon İcra Hakimiyyətinin dəstəyilə 150 kvadratmetr ərazidə



salınan abidə müasir üslubda qurulur, şəhidlik kompleksinin ərazisi genişləndirilir, ətrafda abadlıq işləri görülür.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Firdovsiyyə Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, türk əsgərlərinin şərəfinə inşa edilən anım abidəsinin həm tarixi, həm siyasi, həm də mənəvi əhəmiyyəti böyükdür.** "Bakının erməni daşnaklarından azad olunmasından 101 illik bir dövr keçib. Təbii ki, 1918-ci ildə Bakının azadlığı uğrunda canından keçən Qafqaz İslam Ordusunun əsgərlərinin xatirəsinə abidə ucaldılması məsələsi Cümhuriyyət hökuməti tərəfindən planlaşdırılmışdı. Bizim şəhidlərin və Qafqaz İslam Ordusunun şəhid əsgərlərinin uyuduğu indiki Şəhidlər Xiyabanında Zivər bəy Əhmədbəyov tərəfindən xatirə kompleksinin ucaldılması nəzərdə tutulmuşdu. 1919-cu ildə xatirə abidəsinin təməlqoyma mərasimi keçirilsə də, lakin Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bu abidəni reallaşdırmaq mümkün olmadı. Bizə Sovet dövründə bu tarixi unutdurmağa çalışsalar da, Qafqaz İslam Ordusunun azadlıq missiyasının keçdiyi ərazilərimizdə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Osmanlı əsgərlərinin məzarlıqları var idi və yerli əhali o məzarların unudulmaması üçün bərpa işləri aparırdı. Məsələn, Şamaxıda məşhur türk əsgəri məzarı kimi. Ancaq dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra yerli əhali dövlətin göstərişi olmadan belə, şükranlıq borcunu yerinə yetirmək məqsədilə türk əsgərlərinin məzarlarını aşkarladıqca, onların bərpasını həyata keçirdilər. Hətta Xaçmazda da türk əsgərinin xatirəsinə abidə ucaldılıb. Bu gün Digahda da türk əsgərinin məzarı üstündə abidə ucaldılması, onun xatirəsinə ehtiram göstərilməsi xalqın milli yaddaş siyasətinin gerçəkləşməsi deməkdir. Bu abidələrin ucaldılması xalqın milli yaddaşının dirçəlməsinə kömək edən amillərdən biridir. Abidələr xalqa öz tarixini unutmağa imkan verməyən bir elementdir. Bu baxımdan, belə bir abidənin ucaldılmasının mənəvi tərəfi var, mənəvi cəhətdən bunun əhəmiyyəti daha çoxdur. Digahda türk şəhidinin məzarı üzərində abidənin ucaldılması Azərbaycan-Türkiyə qardaşlığının, müştərək hərbi əməkdaşlığın tarixinin bir simvoludur. Eyni zamanda, bu abidə ermənilərin Azərbaycana qarşı təcavüzünü göstərən bir maddi sübutdur. Bu hələ də bizə qarşı erməni təcavüzünün davam etdiyi bir dövrdə tariximizi, başımıza gətirilən bəlaları unutmamaq baxımından da yenə də növbəti bir göstəricidir. Ona görə də bu abidənin siyasi, tarixi və mənəvi əhəmiyyəti böyükdür" - deyə bildirən F.Əhmədova qeyd etdi ki, ölkəmizin müxtəlif yerlərində mövcud olan türk əsgərlərinin məzarlarını aşkara çıxararaq onları bərpa etmək və üzərində abidənin ucaldılması çox əhəmiyyətli hadisədir.

***İradə SARIYEVA***

# Rusiya XİN-dəki ermənilərin Azərbaycana qarşı misilsiz yeni təxribatı - milyonlarla rus turisti bir ovuc erməniyə qurban verilir...

**Rusiyanın Xarici İşlər Nazirliyi (XİN) Azərbaycana səfər etməyi planlaşdıran vətəndaşlarına risqlər barədə xəbərdarlıq edib. Belə ki, XİN-in öz saytında dərc etdiyi məlumatda deyilir ki, Rusiya tərəfinin çoxsaylı müraciətlərinə baxmayaraq, erməni əsilli şəxslər Azərbaycan Respublikasına buraxılmır.**



## *Aqşin Əliyev: "Erməni əsilli vətəndaşların ölkəmizə niyə buraxılmadığı ilə bağlı dəlilləri Azərbaycan tərəfi dəfələrlə təqdim edib"*

XİN-in məlumatında bildirilir ki, Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasını əsas gətirərək, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, erməni əsilli şəxslərin ölkəyə buraxılmasına icazə vermir: "Bu həmin şəxslərin təhlükəsizliyinin təmin edilə bilməyəcəyi ilə əlaqələndirilir. Rusiya tərəfinin etnik diskriminasiyanın yolverilməz olması barədə bütün müraciətləri cavabsız qalıb. Buna görə Rusiya vətəndaşlarına Azərbaycana gedərkən mövcud vəziyyəti nəzərə almağı və risqləri gözdən keçirməyi tövsiyə edirik".

Rusiya hökuməti ilk dəfədir yazılı bəyanatla öz vətəndaşlarına Azərbaycana getməmələri ilə bağlı xəbərdarlıqla çıxış edir. Rusiyadan əvvəl də bununla bağlı şifahi açıqlamalar olmuşdu. Azərbaycan tərəfi həmin iradlara rəsmi səviyyədə ətraflı izahat verib. Rusiyaya izah olunub ki, erməni əsilli vətəndaşlarla bağlı tətbiq edilən ciddi nəzarət ölkəmizin Ermənistanla yaşadığı müharibə səbəbindəndir və həm ölkəmizin, həm də həmin erməni əsilli vətəndaşların təhlükəsizliyinin təminatı üçün olunur. Ancaq, göründüyü kimi, Rusiya bu mövzunu yenidən qabartmaqda maraqlıdır. Nə qədər qəribə olsa da, Rusiyanın rəsmi dairələri bu dəfə bütün vətəndaşlarını Azərbaycana səfər etməməyi tövsiyə edirlər. Yəni erməni faktoru əsas gətirilərək, müraciət bütün ölkə vətəndaşlarına olunur. Aydındır ki, Rusiyanın yuxarı eşalonunda verilən qərarlar təsadüfi xarakter daşımır. Həmin ölkədə böyük təsir gücünə malik olan erməni mərkəzləri mövcuddur. Verilən son qərarda da erməni lobbisinin əl izləri görünür. Bu, açıq-açığına, Azərbaycanla düşmənçilik etmək anlamına gəlir. Əslində, bu çağırışın kökündə Azərbaycanın iqtisadiyyatına külli miqdarda zərbə vurmaq planı durur. Azərbaycan tərəfinin təqdim etdiyi rəsmi hesabatlarda bildirilir ki, ölkəmizə gələn xarici turistlərin sayına görə Rusiya birinci yeri tutur. Bu da ölkəmizin iqtisadiyyatına külli miqdarda valyutanın gəlməsini şərtləndirir. Hələ ötən ilin sonlarında Azərbaycan Prezidenti İlham Əliyev "Rusiya-24" telekanalına müsahibəsində bildirib ki, ölkəyə gələn turistlərin arasında birinci yeri Rusiya vətəndaşları tutur. Onun sözlərinə görə, son iki ildə turizmin artması müşahidə edilib. Belə ki, 2016-cı ildə turistlərin artımı 22%, 2017-ci ildə isə 20% təşkil edib: "Biz bu il hələ bilmirik, lakin artım da olacaq. Turistləri, ilk növbədə, özlərini burada hiss etdikləri şərait cəlb edir. Rusiyalılara gəldikdə isə, düşünürəm ki, onlar özlərini öz evlərindəki kimi hiss edirlər. Burada dil baryeri yoxdur, onlara qarşı çox yaxşı münasibət bəslənir, ortaq tariximiz də əhəmiyyətli rol oynayır. Təhlükəsizlik, rahatlıq, Azərbaycan xalqının qonaqpərvərliyi, tarixi abidələr, iqlim səviyyəsi - turistləri Azərbaycana cəlb edən amillərin sayı çoxdur. Hesab edirəm ki, rusiyalılar məni eşidir. Mən onları məmnuniyyətlə ölkəmizə səfərə dəvət edirəm. Onlara hər zaman çox şadıq".

Göründüyü kimi, ölkə başçısı Rusiya vətəndaşlarına bir dost münasibəti sərgiləyir, onları ölkəmizə dəvət edir. Amma bunun fonunda, Rusiyanın bəzi dairələri ermənilərin xoşuna gəlsin deyə, ölkəmizin maraqlarına ağır zərbə vururlar. Əslində, Rusiyanın adından yayılan son mövqe ölkələrimiz arasında xoş münasibətlərin ruhu ilə də adekvatlıq təşkil etmir. Çünki Rusiya ilə Azərbaycanın rəhbərləri arasında çox səmimi dostluq münasibətləri var.

**Ekspert Aqşin Əliyev də qəzetimizə bildirdi ki, bu mövzunu şişirtməkdə, gündəmdə saxlamaqda maraqlı olan dairələr var:** "Bundan əvvəl də Rusiya XİN səviyyəsində məsələ qabardıldı. Ən maraqlısı isə budur ki, iki ölkə arasındakı münasibətlərə kölgə salmaq istəyən qurum rolunda daha çox Rusiyanın XİN-i çıxış edir. Erməni əsilli vətəndaşların ölkəmizə niyə buraxılmadığı ilə bağlı dəlilləri Azərbaycan tərəfi dəfələrlə təqdim edib. Bu mövzuda tutarlı arqumentlər ortaya qoyulub. Münaqişə dövründə erməni əsilli idmançılar, siyasilər müxtəlif tədbirlərdə, yarışlarda iştirak ediblər. Onların hər birinin təhlükəsizliyi ölkəmiz tərəfindən təmin edilib. Ancaq kütləvi şəkildə ölkəmizə gələcək erməni əsilli vətəndaşların hər birini nəzarətdə saxlamaq bizim üçün çətindir. Yaxşı, onların başına gələ biləcək faciədən sonra Rusiyanın münasibəti necə olar? Onda da deyəcəklər ki, Azərbaycanda Rusiya vətəndaşları döyülür və ya öldürülür. Hesab edirəm ki, bu mövzunu bəhanə edib, bütün Rusiya vətəndaşlarına Azərbaycana səfər etməməklə bağlı müraciət etməyin arxasında iki ölkə arasındakı münasibətləri pozmaq istəyən dairələr durur. Ən başlıcası isə, erməni barmağı görünür".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya-Gürcüstan razılaşması Ermənistanın qaz problemini daha da kəskinləşdirə bilər...

**Gürcüstan Rusiya qazının Ermənistana tranzit haqqının artırılmasına, eləcə də Rusiyadan alınan təbii qazın qiymətinin azaldılmasına nail olub. Bunu Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini Natiya Turnava Gürcüstan üzərindən Ermənistana qaz nəqlinin həyata keçirilməsi ilə bağlı Rusiyanın "Qazprom" şirkətilə imzalanan yeni müqavilənin detallarını açıqlayarkən deyib.**



*"Nəzərə almaq lazımdır ki, Ermənistan Aİİ-də, KTMT-də təmsil olunur"*

## *İlham Şaban: "Rusiyanın xeyri olmasaydı, belə biznes əlaqəsinə girməzdi"*

Onun sözlərinə görə, Rusiya ilə aparılan danışıqlarda Tiflisin başlıca vəzifələrindən biri Gürcüstanın irəli sürdüyü şərtlərin təmin edilməsinə nail olmaq idi: "Biz hər iki - bizə ödənilən tranzit haqqının çoxaldılması və aldığımız rus qazının qiymətinin azaldılması üzrə mövqeyimizi yaxşılaşdırmağa nail olduq. Amma Rusiyadan alınan təbii qaz qiymətinin azaldılması özəl biznesin bu alternativə maraq göstərəcəyi hal üçün nəzərdə tutulub".

Gürcü nazir bildirib ki, kommersiya sirri olduğundan, Rusiya ilə razılaşdırılan qiymətlər açıqlanmır. Tornava onu da qeyd edib ki, "Qazprom"la 2019-cu ildən 2020-ci ilə qədər açıq olacaq 2 illik müqavilə imzalanacaq: "Müzakirələr bizim xeyrimizə başa çatdı. Tranzit xərcləri artdı. Bunu necə bacardıq? Bunun bir neçə izahatı var. Danışıqlarda komandamız dünya neft qiymətlərinin dinamikasından yaxşı istifadə etdi. Qiymətlərdə müəyyən bir azalma var. Güzəştlər üçün biz bu amildən yaxşı istifadə etdik. Bizim bazarımızın əksəriyyəti xüsusi bir istehlakçı sektorudur. Bu sektor Azərbaycan qazı ilə təmin olunacaq. Yəni bunun üçün bir qaynaq var".

Görünən odur ki, Ermənistana qazın ötürülməsində Rusiya ziyana gedəcək. Çünki yeni şərtlər Rusiyanın xeyrinə deyil. Nəzərə almaq lazımdır ki, 2019-cu il ərzində Ermənistan Rusiyadan 2,5 milyard kubmetr qaz alacaq. İxrac olunacaq qazın qiyməti isə bu ilin əvvəlindən 15 dollar artırılıb ki, bu da çox kiçik rəqəmdir. Əvvəl Ermənistana qazın hər min kubmetri 150 dollardan satılırdısa, bu il həmin rəqəm 165 dollar olub. Belə olan halda, Rusiyanın özünə zərər edən formada Ermənistana qaz ixrac etməkdə məqsədi nədir?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban buna bir neçə kontekstdən yanaşdı:** "Əvvəla Rusiyanın xeyri olmasaydı, belə biznes əlaqəsinə girməzdi. Rusiyanın 150 dollarda da xeyri var, 165 dollarda da. Nəzərə almaq lazımdır ki, bu ilin əvvəlindən Rusiya Ermənistana ixrac etdiyi qazın qiymətini artırıb. On beş dollar da olsa qiyməti artırıb. Bundan başqa, Rusiya əvvəl Ermənistana ixrac etdiyi qazın 10 faizini Gürcüstana əmtəə şəklində verirdi. Belə vəziyyət 2008-ci ildə baş verən müharibə ilə əlaqədar yaranmışdı. Bu isə Rusiya üçün sərfəli deyildi. İndi Rusiya tranzit haqqını pulla əvəz edib. Düzdür, Gürcüstan tranzit haqqını artırıb, amma bunun nə qədər olması kommersiya sirridir. Bəlli deyil tranzit haqqı nə qədər artırılıb. Gürcüstan müxalifəti iddia edir ki, Ermənistana ötürülən qazın dəyərinin 3 faizi qədərində tranzit haqqı ödənilib. Belədirsə, bu, Rusiya üçün sərfəlidir. Bu lap 5 faiz olsa belə, yenə yaxşı rəqəmdir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Ermənistan Avrasiya İqtisadi İttifaqında, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur. Ermənistanda Rusiyanın hərbi bazaları var və bu ölkələr arasında müttəfiqlik münasibətləri mövcuddur. Bütün bunları Rusiya nəzərə alır. Sözügedən faktorlar da qaz məsələsində Rusiyanın Ermənistana müəyyən güzəşt etməsinə təsir göstərir. Bu gün Rusiya Belarusa Ermənistanla müqayisədə qazı daha ucuz satır. Çünki Belarus Rusiya ilə daha yaxın münasibətlərə malik olduğu üçün, qazı 127 dollara alır. Ona görə də bu amilləri nəzərdən qaçırmaq olmaz".

***Vidadi ORDAHALLI***

**"Mən dialoqu təkcə prezidentlə yox, həm də Azərbaycan xalqı ilə davam etdirməyə hazıram". Bu fikirləri Dağlıq Qarabağda keçirilən Təhlükəsizlik Şurasının iclasında çıxış edən Ermənistan baş naziri Nikol Paşinyan səsləndirib.**



*"O, sülhə maraqlıdırsa, konstruktiv mövqe ortaya qoysun"*

# Paşinyan uğursuz avantüralardan yorulmayıb, yeni təxribat - Azərbaycan xalqı ilə dialoq...

## *Vüqar Rəhimzadə: "Paşinyan belə fikirlər səsləndirməklə bir daha səriştəsiz və naşı bir siyasətçi olduğunu təsdiq edir"*

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti Azərbaycan ictimaiyyətinin sülhə hazırlanmasında iştirak etməlidir. Paşinyan iddia edir ki, xalqların sülhə hazırlanması danışıqlara cəlb edilmiş hökumətlərdən birinin məsələsi ola bilməz, bu, birgə işdir: "Mən onu nəzərdə tuturam ki, məsələn, Azərbaycan ictimaiyyətinin sülhə hazırlanması təkcə Azərbaycan hakimiyyəti ilə yox, həm də Ermənistan hakimiyyətinin iştirakı ilə həyata keçirilməlidir".

Paşinyanın sözlərinə görə, guya məhz bunun dərk edilməsi onu 2018-ci ilin payızında Ermənistan parlamentində görünməmiş bəyanatla çıxış etməyə məcbur edib və o bildirib ki, münaqişənin həlli həm də Azərbaycan xalqı üçün məqbul olmalıdır: "Baxmayaraq ki, mən dialoqu təkcə prezidentlə yox, həm də Azərbaycan xalqı ilə davam etdirməyə hazıram. Çünki əminəm ki, Azərbaycan xalqı da erməni xalqı, "Artsax" xalqı qədər sülhpərvərdir".

Bütün bunlar Nikol Paşinyanın nə qədər dayaz bir siyasətçi olduğunu göstərir. Əvvəla Azərbaycan Konstitusiyasına görə, ölkəni prezident təmsil edir. Prezident xalqın adından danışa bilər. Azərbaycan xalqı da bu hüququ Prezident İlham Əliyevə verib. Paşinyan həqiqətən də konstruktiv danışıqlara, sülhə maraqlıdırsa, o zaman ölkə başçısı ilə anlaşa bilər. Bunun üçün hansısa qeyri-adi ideya ilə çıxış etməyə ehtiyac yoxdur. O baxımdan, Paşinyanın bu açıqlaması nə deməkdir?

**Məsələyə münasibət bildirən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, Paşinyan belə fikirlər səsləndirməklə bir daha səriştəsiz siyasətçi olduğunu təsdiq edir:** "Əvvəla Paşinyan nə demək istədiyini özü də bilmir. Çünki azçox siyasətə bələdçiliyi olan insan belə fikirlər səsləndirməz. Belə görünür ki, Paşinyanın qanunlardan belə xəbəri yoxdur. Ona görə də nə gəldi danışır. Gərək danışdıqdan sonra düşünməyəsən, düşündüyünü danışasan. O baxımdan, Paşinyanın belə yanaşması tamamilə anormaldır. Bu bir daha onun çaş-baş siyasətçi olduğunu ortaya qoyur. Azərbaycanın qüdrətli gücünü hiss etdiyi üçün özü də çaş-baş vəziyyətdədir. Azərbaycan Konstitusiyası, dövləti və qanunları var. Bu qanunlar çərçivəsində də ölkə seçiciləri prezidenti seçir və xalqın adından danışmaq səlahiyyətini ölkə başçısına verir. Paşinyan hələ dərk etmir və anlamır bu məsələləri. Prezident İlham Əliyev xalqın adından danışmaq səlahiyyətinə malikdir. O, sülhə maraqlıdırsa, konstruktiv mövqe ortaya qoysun. Yoxsa, müxtəlif yayındırıcı fikirlər ortaya atmaqla kimisə aldatmağa çalışmasın. Ona görə də Paşinyan belə fikirlər səsləndirməklə bir daha səriştəsiz və naşı bir siyasətçi olduğunu təsdiq edir. Ümumiyyətlə, onun həyata keçirdiyi siyasətdə, beynəlxalq siyasətə baxışında bir anormallıq var. Bu bir daha onun nə qədər təcrübəsiz və qeyri-peşəkar siyasətçi olduğunu ortaya qoyur".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində Ermənistanın Təhlükəsizlik Şurasının iclasının keçirilməsi İrəvanın konfliktin həllində hələ də qeyri-konsruktiv bir mövqedə olduğunu növbəti dəfə təsdiqlədi. Eyni zamanda, bu məsələnin maraq doğuran digər tərəfi Ermənistanda hakimiyyət daxilində parçalanmanın olduğunu da açıq nümayiş etdirməsidir.**



# Ermənistan Təhlükəsizlik Şurasının Qarabağ iclası hakimiyyəti parçaladı - Paşinyan əleyhinə Sarkisyanın komandası formalaşır

Söhbət indiki halda Ermənistanın baş naziri Nikol Paşinyanla prezident Armen Sarkisyan arasında olan ziddiyyətdən gedir.

Xatırladaq ki, Ermənistan prezidenti işğal altında olan Xankəndi şəhərində keçirilən Təhlükəsizlik Şurasının iclasına qatılmaqdan imtina edib. Ermənistanın "tert.am" portalı yazır ki, bu qərar Ermənistan ictimaiyyəti arasında çaşqınlığa səbəb olub.

Nəşr yazır ki, Ermənistanın Təhlükəsizlik Şurasının iclasının Qarabağda keçirilməsinin rəsmi səbəbi açıqlanmasa da, aydındır ki, bu, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son bəyanatı ilə bağlıdır. Qeyd olunur ki, məhz bu məqsədlə Nikol Paşinyan, Təhlükəsizlik Şurasının üzvləri, Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Artur Vanetsyan, xarici işlər naziri Zöhrab Mnatsakanyan Qarabağda olub.

Qeyd edək ki, Ermənistan Təhlükəsizlik Şurasının üzvlüyünə baş nazir, baş nazirin müavinləri, Təhlükəsizlik Şurasının katibi, müdafiə naziri, xarici işlər naziri, MTX direktoru, polis rəisi və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi daxildir. Yeni yüksək rütbəli məmurlardan Ermənistan parlamentinin spikeri və prezidenti Təhlükəsizlik Şurasının üzvü deyil. Onlar Konstitusiya dəyişikliklərindən sonra Təhlükəsizlik Şurasının üzvləri sırasına daxil olmayıb. Lakin məlum olub ki, Ermənistan baş naziri Qarabağda keçiriləcək iclasa parlament sədri Ararat Mirzoyana iştirak üçün dəvət göndərib və o da bu iclasda iştirak edib. Belə olan halda Armen Sarksyanın kənarda qalması sual doğurub. "Tert.am" portalı Ermənistan prezidentinin dəvət olunub-olunmaması ilə maraqlanıb. Onun ofisinin rəsmisi Asmik Petrosyan isə bildirib ki, Ermənistan prezidentinə belə bir dəvət gəlməyib. Düzdür, sonradan iddia olunub ki, dəvət çox gec göndərilib. "Tert.am" yazır ki, əslində, baş verənlər Paşinyanın prezidentə münasibəti və onlar arasında ziddiyyətin dərinləşməsinin göstəricisidir. Ermənistanın "Past" qəzeti qeyd edir ki, əslində, Paşinyan prezidenti devirmək niyyətindədir. Bu fonda vurğulanır ki, Armen Sarkisyan, böyük ehtimalla, Konstitusiyada nəzərdə tutulduğu kimi, 7 il müddətində öz vəzifəsində qalmayacaq: "Bizdə olan məlumata görə, baş nazir Nikol Paşinyan bu vəzifəyə də öz namizədini gətirmək istəyir. Armen Sarkisyanın cəmiyyətin əsas hissəsində böyük nüfuzu olmasına baxmayaraq, Paşinyan ölkə prezidenti postunu Serj Sarkisyanın gətirdiyi şəxsin tutması fikri ilə barışa bilmir. Mənbəmizin verdiyi məlumata görə, Armen Sarkisyanın istefa verməsi üçün baş nazir ona sərt təzyiqlər göstərir və prezidentin yeni parlament çoxluğu tərəfindən seçilməsinə dair danışıqlar aparılır".

Hadisələrin bu səpkidə inkişafı Armen Sarkisyanın da Paşinyana münasibətini sərtləşdirməsinə səbəb olub. O bu prosesdə "Qarabağ klanı"na daxil olan qüvvələrlə sıx əməkdaşlıq da edir. Belə vəziyyətdə Ermənistan prezidentinin məsləhətçisi Tevan Poqosyan dövlət başçısının razılığı ilə ölkədə problemləri açıq şəkildə qabartmağa başlayıb. Məsələn, o, mövcud sosial-iqtisadi və digər problemlərin həllində hansısa irəliləyiş olmadığını bildirir. Bundan əvvəl isə Tevan Poqosyan erməni ordusunun təcrübəsizliyi haqqında da maraqlı bir açıqlama verimişdi: "2018-ci ilin yay çağırışından xeyli keçib. Amma yeni xidmətə başlayan əsgərlər hətta barıt qoxusu ilə tanış deyillər, onlarda hələ ki, rəqibin atəşlərinə cavab təcrübəsi yoxdur. Təcrübəsizlik həmişə qorxu doğurur. Ümid edirəm ki, bizim ordumuzda qorxunun ölçüsü üzrə çarə var, əks halda anlayırsınızmı ki, təcrübəsizliyə görə hansı vəziyyət yaranacaq?" "Past" qəzeti qeyd edir ki, Tevan Poqosyan belə açıqlamaları prezidentin razılığı olmadan verə bilməz və baş verənlər Armen Sarkisyanın Paşinyana qarşı mövqeyini göstərir. Erməni şərhçi Aram Amatuni də vurğulayır ki, prezidentitn təmsilçisi Poqosyanın sözləri mesaj xarakteri daşıyır. Bu mesaj birbaşa Nikol Paşinyana ünvanlanıb. "Joxovurd" qəzeti isə bildirir ki, Armen Sarkisyan Paşinyana qarşı mübarizədə xarici işlər naziri Zöhrab Mnatsakanyanın da onun yanında yer alacağına ümid edir. Qeyd olunur ki, Zöhrab Mnatsakanyan hələ 1993-cü ildən Armen Sarkisyanla işləyib: "Deyilənə görə, XİN rəhbərliyinə də o məhz Sarkisyanın dəstəyi ilə gətirilib. İndi prezident nazirin onun yanında olmasını istəyir".

Bütün bunlar onu göstərir ki, Ermənistan daxilində yeni ziddiyyətlər baş qaldırır və belə vəziyyət ölkə üçün yeni böyük problemlər vəd edir. Ümumiyyətlə, Ermənistanda baş vermiş "məxməri inqilabdan" sonra ölkədə davam edən siyasi böhran istər hakimiyyət daxilində, istərsə də ictimai-siyasi kuluarlarda bir sıra qarşıdurmaların yaşanmasına səbəb olmaqdadır.

***Tahir TAĞIYEV***

# Elçin Babayevin rektor təyinatına opponentlik edənlərin iki dözümsüz arqumenti...

**Xəbər verildiyi kimi, ölkənin nüfuzlu təhsil ocağı kimi tanınan Bakı Dövlət Universitetinə yeni rektor təyinatı reallaşıb. Prezident İlham Əliyev imzaladığı fərmanla Elçin Babayevi BDU-ya rektor təyin edib. Bu təyinatla bağlı sosial şəbəkələrdə ciddi polemikalar aparılmaqdadır. Qeyd edək ki, uzun müddət BDU-ya rəhbərlik etmiş Abel Məhərrəmovun vəzifəsindən azad edilməsindən sonra bütün diqqətlər həmin universitetə yönəlmişdi.**

Ən əsası da universitetə kimin rektor təyin ediləcəyi ilə bağlı ciddi fikir mübadilələri aparılırdı.

Yeni rektorun tərcümeyi-halında bildirilir ki, o, 1965-ci ildə Naxçıvanda doğulub. Fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktorudur. O, bu təyinata qədər Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsində işləyib. Elçin Babayev, eyni zamanda, AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) elmi işlər üzrə direktor müavini, ŞAR "Günəş və Günəş-Yer əlaqələrinin fizikası" şöbəsinin rəhbəri və AMEA-nın "Azərbaycan Astronomiya Jurnalı"nın baş redaktor müavinidir. Bundan başqa, onun Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Dövlət Universitetində, Əmək və Sosial Münasibətlər Akademiyasında, 289 nömrəli məktəb - "Zəngi" liseyində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunda, Rəhbər kadrların fasiləsiz təhsil mərkəzinin qısamüddətli ixtisasartırma kurslarında pedaqoji fəaliyyətlə məşğul olduğu da bildirilir.

Yeni rektorla bağlı sosial şəbəkələrdə birmənalı fikir səsləndirilimir. Onun çox bacarıqlı və yüksək keyfiyyətlərə malik insan olduğu bildirilir.

Ancaq aparılan polemikalarda yeni rektorla bağlı daha çox iki amil "zəif" faktor kimi qabardılır. Onun əslən naxçıvanlı olması ilə yanaşı, elmi dərəcəsinin hələ də fəlsəfə doktoru səviyyəsində qalmasına açıq irad bildirənlər də tapılır. Rektorun regional mənsubiyyətilə bağlı səslənən arqumentin çox cılız olduğunu nəzərə aldığımız üçün, bu amilin üzərində xüsusi dayanmaq istəmirik. Çünki Azərbaycanda həyata keçirilən kadr siyasətində bu faktor, ümumiyyətlə, nəzərə alınmır. Çox güman ki, belə cılız mövzuları qabardanlar dövlətimizin yürütdüyü kadr siyasətinə kölgə salmağı hədəf seçirlər. Ancaq yeni rektorun elmi dərəcəsinin həmin vəzifə üçün yetərli olmadığı barədə səslənən iddialarla bağlı bir araşdırma aparmaq qərarına gəldik.

Millət vəkili Fazil Mustafa yeni rektoru yaxından tanıdığını bildirərək, onu belə xarakterizə edib: "Bakı Dövlət Universitetinə yeni rektor təyin olundu. Tanıyıram, çox dəyərli bir ziyalı ailəsindəndir, öz sahəsində də savadlı mütəxəssislərdən biri kimi tanınır. Bu seçim ölkə Prezidentinə aid olduğuna görə BDU kimi tanınmış təhsil ocağının məhz Elm Fonduna rəhbərlik etmiş şəxs tərəfindən idarə olunmasının məqsədəuyğun sayılmasını müzakirə etmirəm. Əsas odur ki, təhsilimiz üçün xeyirli olsun. Bununla belə, bəzi yanaşmalarda bu təyinatla bağlı iradın daha çox yeni rektorun fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, yəni keçmiş deyimlə səsləndirsək, elmlər namizədi olması üzərində cəmləndiyini görüb fikir bildirməyi zəruri hesab etdim.

Fikrimcə, mövcud şərtlərdə ən zəif irad arqumenti də məhz bu sayılmalıdır…"




Təhsil eksperti Etibar Əliyev isə yeni rektorun psixoloji portretini belə cızıb: "Öz üzərində çalışan, möhkəm xarakterli və intizamlı".

Ekspert rektorun elmi dərəcəsinin aşağı olması ilə bağlı tutulan iradlarla razılaşmır: "Elçin Babayev bu elmi dərəcədə olan BDU-nun ilk rektoru deyil. Sayca üçüncüdür. Elçin Babayevin Bakı Dövlət Universitetinə rektor təyinatından sonra iddia edənlər oldu ki, bu nüfuzlu ali məktəbə ilk dəfə olaraq elmlər namizədi rektor təyin olunur. Xatırladıram ki, E.Babayev universitetin tarixində 3-cü elmlər namizədi rektordur. Universitetə 1965-ci ildə rektor təyin olunmuş fizika-riyaziyyat elmləri namizədi Mehdi Əliyev də elmlər namizədi olub. Onu yüksək elmə və təşkilatçılıq bacarığına malik olan rektor kimi dəyərləndirirlər. Mehdi Əliyev Azərbaycan dilində dərslik, dərs vəsaitlərinin hazırlanması, fizika üzrə terminologiyanin tərtibi kimi işlərə xüsusi əhəmiyyət verib. O, tələbələr üçün bir çox vacib dərsliyi (A.F.İoffe. "Molekulyar fizika kursu" və s.) rus dilindən Azərbaycan dilinə tərcümə edib və ali məktəblər üçün Optika kursundan Azərbaycan dilində yazılmış ilk dərsliyin həmmüəllifi olub. Mehdi müəllim 1970-ci ilə qədər rektor vəzifəsində işləyib. Çox təəssüflər olsun ki, belə şəxsiyyətləri tez unuduruq.

1992-cü ildə isə BDU-ya hüquq elmləri namizədi Firudin Səməndərov rektor təyin olunub".

Göründüyü kimi, yeni rektorun elmi dərəcəsinin guya "standartlara" cavab vermədiyi ilə bağlı səslənən iddialar da özünü doğrultmur.

Biz araşdırma apararkən sosial şəbəkələrdə bəzi tələbələrin də Elçin Babayev haqda fikirlərini yazdıqlarının şahidi olduq. E.Babayevin tələbəsi olduğunu deyən Bəhruz Orucov adlı şəxs yeni rektoru belə xarakterizə edib: "Elçin müəllim dərsi elə maraqlı izah edir ki, onun bundan öncə kosmosda olması ilə bağlı təəssürat yaranır. Xarakterli, intellektual-savadlı, kübar, intellektli, ciddi bir şəxs kimi xatirimdə qalıb".

Qeyd edək ki, bundan sonra Elçin müəllimin işinə qiymət nə onun haralı olması, nə də elmi dərəcəsinə görə verilməyəcək. Yeni rektorla bağlı əsas ölçü meyarı görüləcək işlər, əldə olunan nəticələr olacaq. Göstərilən yüksək etimadı doğrultmaq ümidilə ona işlərində uğurlar arzulayaq.

***Məhəmmədəli QƏRİBLİ***

# Qış imtahan sessiyasının nəticələrinə görə əlaçı tələbələrə Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdü təqdim edildi



**Martın 13-də 2018-2019-cu tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdünün təqdim edilməsi mərasimi keçirilib.**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından "Bakı Xəbər"ə verilən məlumata görə, tədbirdə ATİAHİ Respublika Komitəsinin sədri, millət vəkili Səttar Möhbalıyev çıxış edib.

Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən danışan S.Möhbalıyev həmkarlar ittifaqı təşkilatları tərəfindən dövlət gənclər siyasətinə verilən dəstəkdən bəhs edərək, bu istiqamətdə həyata keçirilən tədbirləri sadalayıb. Qeyd edib ki, ATİAHİ Respublika Komitəsi tərəfindən bu istiqamətdə müxtəlif intellektual oyunlar, idman yarışları təşkil olunur, gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bağlı işlər görülür. Həmçinin aztəminatlı ailələrdən olan tələbələrin sosial təminatının gücləndirilməsi ilə bağlı addımlar atılır. Belə ki, hər il Respublika Komitəsi tərəfindən aztəminatlı ailələrdən olan 220-dən artıq tələbə pulsuz yeməklə təmin olunur. Sonra yay imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə (61 nəfər) ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təqdim edilib.

Məlumat üçün qeyd edək ki, tələbələrdə elmə, təhsilə marağın artırılması məqsədilə 1995-ci ildə ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təsis edilib. O vaxtdan bu günə qədər ali təhsil müəssisələrində qış və yay sessiyasının nəticələrinə görə uğur əldə etmiş 2270 nəfər tələbə bu təqaüddən yararlanıb.

# Türkiyənin Rusiyadan məşhur S-400 sistemlərinin alış prosesində Azərbaycana unikal rol ayrıla bilər

**ABŞ və Türkiyə arasında S-400 zenit-raket sistemləri ilə bağlı yaşanan qalmaqal hələ də davam edir. Vaşinqtondan gələn bütün təhdidlərə rəğmən isə Ankara bu raketləri artıq cari il ərzində alacağını bəyan edir. Türkiyənin müdafiə naziri Hulisi Akar bildirir ki, ölkə ərazisində S-400 zenit-raket sistemlərinin yerləşdirilməsi prosesi bu ilin oktyabrında başlanacaq:**

"Hərbi hava gücləri onların hansı regionlarda yerləşdirilməsinin daha yaxşı olduğunu öyrənir".

ABŞ, əvvəlki kimi, Türkiyənin Rusiyadan aldığı S-400 kompleksinin təhvil tarixi yaxınlaşdıqca Ankaranı müxtəlif sanksiyalarla təhdid edir. Qeyd edək ki, bu komplekslərin çatdırılması haqqında Rusiya-Türkiyə müqaviləsi 2017-ci ildə bağlanıb. 2,5 milyard dollarlıq müqavilə çərçivəsində Türkiyəyə 4 S-400 divizionu çatdırılacaq. Vaşinqton dəfələrlə xəbərdarlıq edib ki, S-400-lərin alınması qabaqcıl texnologiyaların və "F-35" qırıcıların Türkiyəyə satışının və Ankaranın "F-35" proqramında iştirakının dayandırılmasına gətirib çıxara bilər. Öz növbəsində, Türkiyə tərəfi bildirib ki, hətta "Patriot" sistemlərinin alınması halında belə, S-400-lərdən imtina etməyə hazırlaşmır, çünki bu mövzular birbiri ilə əlaqəli deyil.

Ekspertlər isə bildirir ki, Türkiyə Silahlı Qüvvələri S-400-ü əldə etdikdən sonra güclü bir silah sisteminə sahib olacaq. Təhvil-təslim işləri tamamlandıqdan sonra 4 fərqli bölgədə yerləşdiriləcək bu sistemlər toplamda 128 atışa hazır raketdən qurulmuş qalxan funksiyası daşıyacaq. S-400 sayəsində Türkiyə illərdir ki, yalnız qırıcılarla təmin etdiyi hava sahəsi təhlükəsizliyini artıq çox daha asan və effektiv formada qoruyacaq. Türkiyə mediasında yayılan məlumatlara görə isə, Ankara Rusiyadan S-400 komplekslərini almazdan əvvəl hərbçilərinin müvafiq kurs keçməsini təşkil etmək istəyir. Bunun üçün isə türk hərbçilərin Rusiyadan əvvəl Azərbaycana gələcəkləri gözlənir. Onlar Azərbaycanda, xüsusilə S-300 raketləri ilə yaxından tanış olacaqlar.

Hazırda Türkiyə Müdafiə Nazirliyi və Silahlı Qüvvələrin Baş Qərargahının təlimə gedəcək 100-ə yaxın hərbçinin seçiminə başladığı bildirilir. Qeyd edək ki, Azərbaycan 2010-cu ildə Rusiyadan 2 divizion "S-300 PMU2" kompleksini alıb. Bu raketlər ilk dəfə 2011-ci il iyunun 26-da Bakıda keçirilən hərbi paradda nümayiş olunub. Ekspertlər bildirir ki, Türkiyədən olan hərbçilərin ölkəmizə gəlişi təsadüfi deyil. Çünki S-400-lər S-300 raketlərinin bazasında hazırlanıb. Digər tərəfdən nəzərə almaq lazımdır ki, hazırda Azərbaycan ordusunun istifadəsində olan "S-300 PMU2 Favorit" hava hücumundan müdafiə (HHM) sistemi bu tip silahların ən son və yeniləşdirilmiş modelidir.



Xatırladaq ki, bu sistem 27 kilometr hündürlüyə qədər, 200 kilometr uzaqlıqda yerləşən hədəfləri vurmağa qadirdir, eyni anda 36 hədəfə 3 saniyə ərzində atəş aça bilər. Sistem mobil imkanlara malik olduğundan operativ yerdəyişmə həyata keçirir və 5 dəqiqə ərzində döyüş vəziyyətinə gətirilir. Qurğu 300 kilometr radiusda eyni anda 300-ə qədər hədəfi aşkar edə, silah qurğularının yerləşdiyi divizionla komanda məntəqəsi arasında 90 kilometr məsafəyədək əlaqə yaradaraq hədəfləri vura bilir. Sistem özü avtomatik olaraq hədəfləri müəyyən edir və atəş açır. Hədəflərin vurulma ehtimalı 100-də 99-dur.

Onu da bildirək ki, S-300 zenit raket sistemi radiolokatorlu axtarış sisteminə malik idarəetmə mərkəzindən, 6 zenit raket kompleksindən (ZRK) ibarətdir. 6 ZRK-dan hər biri adətən onun yerləşdiyi hərbi hissənin tabeliyində olur. İdarəetmə mərkəzi hədəflərin ZRK-lar arasında avtomatik bölüşdürülməsinə xidmət edir və öz raketləri olmur. İri sənaye, hərbi və inzibati obyektlərin hava-kosmik zərbələrindən müdafiəsi üçün tətbiq olunur. Ballistik və aerodinamik hədəfləri vurmaq imkanındadır. Əvvəlcədən koordinatları məlum olan yer üzərindəki obyektləri məhv etmək imkanına malikdir. İlk çoxkanallı zenit raket sistemi kimi eyni zamanda 6 hədəfi izləyə və onun hər birinə 12 raket tuşlaya bilər. Bu raketlər, modifikasiyasından asılı olaraq, hədəfləri 47 kilometrdən 150 kilometrdək məsafədə vurma imkanına malikdir. Kompleksin hava obyektlərinin aşkar edilməsinin uzaqlığı 120-dən 300 kilometrədəkdir. Aydındır ki, bütün bu göstəricilər fonunda ölkəmizə gələcək Türkiyə hərbçiləri çox məlumat əldə edə biləcəklər. Digər tərəfdən Türkiyə onu da nəzərə alır ki, Azərbaycan hərbçiləri S-300 zenit raket sistemini artıq professional şəkildə idarə edir. Bu mənada, Ankara hərbçilərinin Azərbaycandan çox şey öyrənə biləcəyini də yaxşı başa düşür.

Ölkəmizdə S-300-lərin mövcud modifikasiyası isə Ermənistanı da hər zaman qorxu içində saxlayır. Cənubi Qafqaz, İran və Rusiya araşdırmaları üzrə ixtisaslaşmış ekspert Masis İngilisyan bu xüsusda bildirir: "Azərbaycan Ermənistana və cənub qonşusu İrana qarşı mürəkkəb hava hücumundan müdafiə sistemi qurub, bu sistem istənilən potensial təhdidin qarşısını almağa imkan verir. S-300-lər və İsraildən alınan digər texnika ilə mövqeyini daha da möhkəmləndirib. Ermənistan Azərbaycanın daha böyük hərbi təhdidinə qarşı ona ani üstünlük verə biləcək kartı oynamaq istəyirdi. Lakin Azərbaycan hazırda regionun əsas oyunçusu kimi kifayət qədər möhkəmlənib, həm də təkcə hərbi planda deyil, geosiyasi planda mövqelərini möhkəmləndirib. Bu, Azərbaycanın müxtəlif tipli istənilən mürəkkəb hava hədəflərini vurmağa imkan verən havadan müdafiə sistemi sayəsində baş verib".

***Nahid SALAYEV***

# Ermənistan TŞ-nin Xankəndi iclası Paşinyan-Sarkisyan düşmənçiliyini aşkar üzə çıxardı...

*"Fikrimcə, bundan sonra siyasi mübarizə bir qədər də dramatikləşəcək"*

**Ermənistan baş naziri Nikol Paşinyanla ölkə prezidenti Armen Sarkisyan arasında olan soyuq münasibətlər get-gedə daha qabarıq formada özünü göstərir. Bu günlərdə Paşinyan yalnız təmsilçilik funksiyaları ilə məhdudlaşan prezident vəzifəsinin icraçısı A.Sarkisyanla görüşərək, onun xarici səfərlərində keçirdiyi görüşlərdə özünü tam səlahiyyətli dövlət başçısı kimi aparmasına iradını bildirib.**



*Əli Orucov: "Nikol Paşinyanın prezident Armen Sarkisyanla nə vaxtsa toqquşacağı gözlənilən idi"*

Bununla yanaşı, Paşinyan Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində keçirilən Ermənistan Milli Təhlükəsizlik Şurasının iclasına Sarkisyanı dəvət etməyib. Erməni mətbuatının məlumatına görə, Ermənistan Təhlükəsizlik Şurasına baş nazir, baş nazirin müavinləri, Təhlükəsizlik Şurasının katibi, müdafiə naziri, xarici işlər naziri, MTX direktoru, polis rəisi və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi daxildir. Yəni yüksək rütbəli məmurlardan Ermənistan parlamentinin spikeri və prezident Təhlükəsizlik Şurasının üzvləri deyillər. Onlar Konstitusiya dəyişikliklərindən sonra Təhlükəsizlik Şurasının üzvləri sırasına daxil olmayıblar. Lakin məlum olub ki, Ermənistan baş naziri Qarabağda keçiriləcək iclasa parlament sədri Ararat Mirzoyanı dəvət edib. O da dəvəti böyük məmnuniyyətlə qəbul edib. Ancaq Mirzoyandan fərqli olaraq, Sarkisyan dəvət edilməyib. Sarkisyanın ofisinin rəsmisi Asmik Petrosyan da bildirib ki, Ermənistan prezidentinə belə bir dəvət gəlməyib.

Görünən odur ki, Paşinyanla Sarkisyan arasında olan ziddiyyətlər get-gedə daha da dərinləşəcək. Paşinyan bütün vasitələrlə çalışır ki, onu proseslərdən kənarda saxlasın. Nəzərə almaq lazımdır ki, A.Sarkisyan əvvəlki hakimiyyətin dövründə prezident seçilib. Ola bilsin ki, həm də bu səbəbdən Paşinyan ondan çox ehtiyat edir. Digər tərəfdən, Paşinyanla müqayisədə A.Sarkisyan bir qədər xarizmatik təsir bağışlayır. Görünür, Paşinyan həm də bu amildən ehtiyat edir. Bütün bunların fonunda, ekspertlər tərəflər arasında yaşanan ziddiyyətləri necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, tərəflər arasında ziddiyyətlərin baş verməsi gözlənilən idi:** "Ermənistanın baş naziri N.Paşinyanın prezident A.Sarkisyanla nə vaxtsa toqquşacağı gözlənilən idi. Lakin bu qarşıdurmanın belə tez baş verməsi onu deməyə əsas verir ki, Ermənistanda vəziyyət bütün sahələrdə böhran həddindədir. Hakimiyyət uğrunda mübarizə yeni mərhələyə qədəm qoyur. Son Konstitusiya dəyişikliklərinə görə, prezident dövləti təmsil etsə də, onun çox məhdud səlahiyyəti var. Ölkənin daxili və xarici siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi baş nazir Paşinyan olmaqla kabinetə məxsusdur. A.Sarkisyan anlayır ki, Paşinyan hakimiyyətdə az-çox möhkəmlənsə, ona ciddi problemlər yarada bilər. Ona görə də bir qədər sərbəst fəaliyyət göstərməklə siyasi manevrlər edir. Paşinyanın sıradan çıxardığı sabiq komandanı və narazıları öz ətrafına cəmləşdirməklə həm özünü sığortalamağa, həm də müəyyən dividend qazanmağa çalışır. Ancaq Paşinyan Armenin niyyətini və planlarını anlamamış deyil. Ona görə də müxtəlif vasitələrlə onu proseslərdən kənarda saxlamağa çalışır. A.Sarkisyanın MTŞ iclasına dəvət edilməməsi də məhz bundan qaynaqlanır. Fikrimcə, bundan sonra siyasi mübarizə bir qədər də dramatikləşəcək. Reallıq ondan ibarətdir ki, hakimiyyətdaxili qruplaşmalarla probblemlər erməni baş nazirini ciddi çətinliklərlə üz-üzə qoyur. Proseslərin gedişi onu daha çətin duruma salır. Hakimiyyətdən endirilənlər isə revanşa ciddi hazırlıq görürlər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# HƏRBİ TƏLİMLƏRİN

# Ermənistandakı xofu - "Bakı nümayişkaranə hücum təlimlərini boş yerə keçirmir"

**Azərbaycanın hərbi müstəvidə əldə etdiyi nailiyyətlərin Ermənistanı getdikcə daha çox qorxuya salması artıq heç kimə sirr deyil. Bunu Azərbaycan Ordusunun davam edən son irimiqyaslı hərbi təlimləri də aydın əşkildə nümayiş etdirir.**

Qeyd edək ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 11-dən 15-dək müdafiə nazirinin rəhbərliyi altında genişmiqyaslı təlimlər keçirilir. Təlimlərə 10 min nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub. Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirir. Eyni zamanda, təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunur. Təlimlər elə ilk gündən Ermənistanda böyük xof yaradıb.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsrun Ovannisyan bildirib ki, bu təlimlər erməni tərəfinə təzyiq göstərməyə hesablanıb: "Hesab edirik ki, bu təlimlər Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın planlaşdırılan görüşü kontekstində keçirilir. Və erməni tərəfinə təzyiq göstərmək cəhdidir".

Ermənistanda ilk kəşfiyyat-diversiya dəstəsinin təsisçisi, hərbi ekspert Vova Vartanov da bildirir ki, Ermənistan artıq diqqəti olmalıdır: "Azərbaycanlıların bu təlimləri əvvəllər malik olmadıqları, indi isə olan texniki vasitələri baxımdan fərqlənir". Vartanov yeni texnika dedikdə Belarus istehsalı "Polonez"ləri nəzərdə tutduğunu deyib. O qeyd edib ki, bu silahlar Belarusdan yeni alındığına görə hərbi təlimlərdə ilk olaraq istifadə edilir. Vartanovun sözlərinə görə, Azərbaycan bu kimi təlimlərdən keçən il 3 dəfə keçirib. O, ordumuzun daim erməniləri gərginlikdə saxladığını etiraf edib. Vartanov, azərbaycanlıları müəllim hesab edərək, özlərinin pis şagird olduqlarını da qeyd edib: "Azərbaycan və ATƏT ermənilərə müharibəyə hazır olun deyir, təzyiq göstərir, keçmişdəki kimi olmayacaq deyir, ancaq ermənilər hələ də müharibəyə hazırlaşmırlar. Bu baxımdan özümüzü axmaq şagird hesab edirəm".

Digər erməni hərbi ekspert Vaan Ambartsumyan da təlimlərin yeni mahiyyət daşıdığını qeyd edib: "Geosiyasi vəziyyətə nəzər salsaq, bu təlimlərin təsadüfi keçirilmədiyini görmək olar. İndi təlim heyəti qarşısına daha mürəkkəb tapşırıqlar qoyulub. Hədəfləri koordinatlarla deyil, özləri axtarıb tapır, özləri də məhv edirlər. Artıq onlar 200 kilometr məsafədən 30 metr dəqiqliklə hədəfi məhv edə bilirlər. Təlimlərdə istifadə edilən hədəflər erməni hədəflərinin təkrarıdır".

Ambartsumyan Prezident İlham Əliyevin 2019-cu ilin görünməmiş bir il olacağını dəfələrlə vurğuladığına diqqət çəkib: "Bu sayda və tərkibdə hərbi texnikanın cəlb edilməsi və istifadəsi çox şeydən xəbər verir. Hamı Əliyev-Paşinyan görüşünün nəzərdə tutulduğunu bilir. Bu qədər sayda texnikanın cəlb edilməsi isə erməni tərəfinə təzyiq göstərilməsinə xidmət edir. Hər bir təlim müharibə kimi qəbul edilir". O etiraf edib ki, Azərbaycanın əldə etdiyi silahlara ermənilərin tərazlaşdırıcı cavabı yoxdur.

Erməni politoloq Yervand Bozoyan isə vurğulayır ki, Azərbaycanın bu təlimləri, əslində Bakı üçün istənilən nəticəni verib. Ən azı o baxımdan ki, İrəvanın istəklərinin əksinə olaraq, Qarabağ məsələsində danışıqlar formatı dəyişməyəcək: "Azərbaycan bu təlimlərlə Ermənistana göstərmək istəyir ki, danışıqlar prosesindən imtina etdiyi təqdirdə hərbi əməliyyatlara başlayacaq". O hesab edir ki, risqlər danışıqlar prosesinin dayanma ehtimalı ilə bağlıdır. Ona görə Paşinyan bəyan edirdi ki, Qarabağın statusu ilə bağlı deyil, məhz formatın dəyişdirilməsi istiqamətində danışıqlar aparacaq: "Təbii ki, Azərbaycan bunu rədd etdi. Ehtimal olunur ki, gözlənilən Əliyev-Paşinyan danışıqlarında format yox, məhz Qarabağ məsələsi müzakirə ediləcək. Paşinyan buna qarşı olsa da, indi onun Qarabağı maksimal dərəcədə danışıqlar prosesində təmsil etmək üçün əlindən gələn hər şeyi edəcəyi düşünülür. Paşinyanın məhz buna görə Qarabağa getdiyi ehtimal edilir. Paşinyan ATƏT-in Minsk Qrupunun bu təkliflərini rədd etmiş olsaydı, bu, məhz İrəvanın ucbatından danışıqların pozulduğu anlamına gələ bilərdi. Bu, öz növbəsində, Azərbayacana hərbi əməliyyatların niyə başlamalı olduğuna da əsas verərdi".

Erməni ekspertin fikrincə, Azərbaycan tərəfindən genişmiqyaslı hərbi təlimlərin keçirilməsi güc nümayişidir: "Onlar vasitəçi ölkələrə və Ermənistana göstərmək istəyirlər ki, İrəvan danışıqlar prosesindən imtina edərsə, onlar legitim əsas olaraq, hərbi əməliyyatlara başlaya bilərlər. Bu, ilk növbədə Paşinyanın danışıqlardan imtina edə bilməməsi və Əliyevin danışıqlar prosesində güclü mövqedə görünməsi üçün güc nümayişidir". Yervand Bozoyan qeyd edir ki, son aylarda Ermənistanda ciddi əks proses gedir və bütün sahələrdə parçalanma prosesi davam edir. Əvəzində isə Azərbaycan daha sürətlə güclənir. Hərbçi-ekspert Ədalət Verdiyev də vurğulayır ki, Ermənistanın təlimlərdən belə böyük narahatlıq duyması əbəs deyil: "Daim öz ordusunun qüdrətindən dəm vuran Ermənistanın, bu ölkənin Müdafiə Nazirliyinin indi keçirdiyi narahatlığın səbəbləri isə əslində məlumdur. Xatırlayırsınızsa, 2015-ci ildə Azərbaycan tərəfi irimiqyaslı təlimlərə başlayanda Ermənistan rəhbərliyi və ekspertlər bu təlimlərə barmaqarası münasibət göstərmişdi. Sonradan məlum oldu ki, bu təlimlərdə tətbiq edilən silahlar və mübarizə metodları qısmən 2016-cı ilin yaz əks-hücum kampaniyasında istifadə edilib. Təlimlərdən narahatlığını ifadə edən nazirlik sözçüsü Artsrun Ovanisyan isə Ermənistan ordusunun mövcud vəziyyətindən tam xəbərdar olan azsaylı vəzifəli şəxslərdən biridir. Bəzilərinin düşündüyü qədər sadəlövh adam da deyil. O yaxşı anlayır ki, Paşinyan hər dəfə yeni bir bəyanat verməklə danışıqlar prosesini dalana dirəyib, danışıqlar prosesinin baş tutması belə təhlükə altındadır, görüşlər və müzakirələrin limiti sonsuz da ola bilməz, münaqişənin qansızqadasız, sülh yolu ilə nizamlanması üçün Azərbaycan əlindən gələni artıqlaması ilə edib və bundan artığına hazır deyil. Lakin Ermənistan tərəfi son aylarda bütün səviyyələrdə verdikləri bəyanatlarla sanki Azərbaycanı öz torpaqlarını azad etmək üçün hərbi əməliyyatları bərpa etməyə təhrik edir. Müharibənin başlaya biləcəyi ehtimalı getdikcə artır. Bu baxımdan Bakının hərbi əməliyyatları bərpa etməkdən başqa çıxış yolu da qalmayıb. Bunu anlayan Ovanisyanda qüvvələrin döyüş say tərkibi barədə dəqiq məlumatlar da mövcuddur. Bəzi parametrlərdə 1:5, bəzilərində isə daha yüksək, məsələn YARS-larda 1:8 nisbəti əməliyyatlar bərpa ediləcəyi təqdirdə Ermənistan ordusuna daha faciəli sonluq vəd edir".

Eyni fikri beynəlxalq məsələlər üzrə rusiyalı ekspert Yevgeni Mixaylov da bölüşür. Təlimlərin Ermənistana ciddi xəbərdarlıq olduğunu vurğulayan Mixaylov Azərbaycanın işğal olunmuş ərazilərində münaqişənin tarixində ilk dəfə Ermənistan Təhlükəsizlik Şurasının iclasının keçirilməsinin də sülhə xidmət etmədiyini bildirir. Mixaylovun fikrincə, işğal edilmiş ərazilərdə iclasın keçirilməsi vəziyyətin destabilizasiyasına yönələn qeyri-adekvat addımdır: "Buna görə də İrəvan Ermənistan Təhlükəsizlik Şurasının iclasını işğal olunmuş ərazilərdə keçirirsə, bu, məhz destabilizasiyaya yönələn addımdır və Azərbaycan tərəfinin bundan sonrakı addımları da şəraitə uyğun şəkildə ola bilər. Bu isə işğal edilmiş ərazilərdə nəzarətin qaytarılması üçün tammiqyaslı müharibəyə hazırlıq anlamına gəlir". Onun sözlərinə görə, Paşinyanın münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupunun irəli sürdüyü əsasları istənilən istiqamətə təhrif etmək və ya redaktə cəhdləri artıq uzun müddətdir dünyanın geosiyasi paytaxtlarında allergik reaksiya doğurur: "Aydındır ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri İrəvanın faktiki olaraq onların etimadı ilə oynamasından və demək olar ki, vaxtı qalmayan Ermənistanın vaxt udmağa çalışmasından yorulub. Mən Qarabağ probleminin sülh yolu ilə həlli üçün vaxtı nəzərdə tuturam. Bütün maraqlı tərəflərin artıq çoxdandır ki, ən azından bufer zonadakı işğal olunmuş rayonların qaytarılmasını gözləməsi sirr deyil, ancaq bu baş vermədi".

Ekspert Nikol Paşinyanın liderliyindəki Ermənistanın siyasi rəhbərliyinin bilərəkdən qarşıdurmaya getməsi təəssüratının yarandığını qeyd edib: "Onlar üçün nə qədər erməni əsgərinin ölməsi vacib deyil. Mənim fikrimcə, onlar üçün Paşinyanın komandasının hakimiyyətə gəlməsini maliyyələşdirən Qərbdən olan tərəfdaşlarının bəzi tapşırıqlarını yerinə yetirmək daha vacibdir". Mixaylovun fikrincə, məsələ ilə bağlı rəsmi Moskvanın mövqeyi tamamilə şəffafdır: "Bütün bu oyunlar regionda Azərbaycanı özü üçün stabil və etibarlı tərəfdaş hesab edən Rusiyaya gərək deyil. Başqa çıxış yolu qalmayacağı halda, Azərbaycanın başladacağı antiterror əməliyyatı kəskin diplomatik tədbirlər görülməsinə səbəb olmayacaq. Fikrimcə, Moskva qısamüddətli əməliyyata göz yuma bilər. Bundan əlavə, təəccüblənən dünya ictimaiyyəti sülh yolu ilə torpaqların qaytarılması ilə bağlı razılığa gələ bilmədiyi üçün Paşinyan hakimiyyətini töhmət altında qoyacaq. Özünü nüfuzlu göstərməyə çalışan İrəvanın bir tərəfdən digərinə qaçmasına baxmaqdan hər kəs təngə gəlib. Vaxt bitib, artıq yaxın həftələrdə razılaşmağın vaxtı çatıb, yoxsa Bakı nümayişkaranə hücum xarakterli təlimlərini boş yerə keçirmir".

Aydındır ki, erməni tərəfi lazımi nəticə çıxarmasa, təlimlərin praktiki döyüş mərhələsinə keçməsi də qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Prezidentin problemli kreditlər barədə qərarı 17 min manatadək krediti olan borclulara da qapı açdı...

**"Problemli kreditlərin restrukturizasiyası üzrə, yəni yeni müddətlərin uzadılması, faizlərin silinməsi üzrə tədbirlər manatla kreditlərə də şamil olunacaq. Yəni məbləği 17 min manata qədər olan kreditlər də eyni şərtlərlə restrukturizasiya olunacaq".**




*"Yəni faizlərin, dəbbələrin silinməsi, bu kreditlərin 5 il müddətində 1-ci il heç bir faiz ödəmədən, 1-ci ildən sonra isə..."*

## Rəşad Həsənov: *"17 min manat ekvivalentində olan problemli kreditlər üzrə yenidən restrukturizasiya nəzərdə tutulur"*

Bunu mətbuata açıqlamasında Mərkəzi Bankın baş direktoru Rəşad Orucov dövlət başçısının "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanını şərh edərkən deyib. O bildirib ki, kreditin qalıq məbləği 17 min manatdırsa və onun vaxtı 1 ildən çox, yəni 365 gündən çox keçibsə, o zaman banklar bu qrup əhalinin də borclarını restrukturizasiya edəcək.

Qeyd edək ki, Prezidentin imzaladığı fərmanda 10 000 dollaradək kredit götürənlərə güzəştlər müəyyən edilib. Yəni fiziki şəxslərin banklara on min dollaradək olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi kompensasiya edilir. Ancaq müştərilərin bir qismi manatla da kredit götürdüyü üçün, məlum devalvasiyadan sonra müəyyən çətinliklərlə üzləşiblər. Bu baxımdan, "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman manat kreditləri ilə də bağlı çətinliklərin aradan qaldırılmasına kömək edəcək. O üzdən bunu ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənovun fikrincə, fərman əsasən ikiistiqamətlidir: "Birinci istiqamət xarici valyutada olan kreditlər üzrə devalvasiyadan dəymiş zərərin kompensasiya olunmasıdır. İkinci istiqamət isə problemli kreditlərlə bağlı yaranmış vəziyyətə müəyyən qədər dəstəyin təmin edilməsidir. Birinci istiqamət artıq məlumdur. İkinci istiqamət üzrə isə 17 min manat ekvivalentində olan problemli kreditlər üzrə yenidən restrukturizasiya nəzərdə tutulur. Yəni faizlərin, dəbbələrin silinməsi, bu kreditlərin 5 il müddətində 1-ci il heç bir faiz ödəmədən, 1-ci ildən sonra isə il ərzində 1 faiz ödəmək şərtilə bu vəsaitin əsas borc qalığının geri qaytarılması nəzərdə tutulur. Məsələn, şəxsin 10 min manat kredit borcu varsa, məbləğ təxminən 5 ilə bölünür. 1-ci ildə faiz tətbiq edilmir. Növbəti 4 il üçün 1 faiz tətbiq edilməklə krediti geri qaytarmış olur. Burada vətəndaş nə əldə edir? Birincisi, fərman qüvvəyə minən günədək olan bütün dəbbələr, faizlər silinir. İkincisi, iş problemli kredit siyahısından çıxarılır, məhkəmələrdən iş geri çəkilir. Üçüncüsü, bundan sonra artırılan müddətdə, yəni 5 il üçün 1-ci il faiz olmadan, qalan illərdə isə 1 faiz tətbiq edilməklə kredit qaytarılmış olur. Adətən isə Azərbaycanda ortalama illik 20-25 faiz hesablanırdı. Bu faizlər hesablanmır, sadəcə, əsas borcun geri qaytarılması nəzərdə tutulur. Bununla yanaşı, fərmanda problemli kreditin konkret olaraq tərifi verilir, yəni 360 gündən çox gecikdirilmiş borclar problemli hesab olunur. Hökumət banklara 682 milyon manat pul təklif edir ki, həmin vəsait məhz problemli kreditlərin restrukturizasiyası üçün istifadə edilsin. Bundan başqa, problemli kreditlərlə yanaşı, devalvasiyanın vurduğu zərərin müəyyən bir qisminin kompensasiya edilməsi normaldır. Çünki burada ayrıseçkilik olmur.

Hətta ödəniş etmiş şəxslərə belə, kompensasiyalar verilir. Hesab edirəm ki, fərman problemli kreditlərin həllinə müsbət təsir göstərəcək".

***Vidadi ORDAHALLI***

# Üç yaşa qədər uşaqlar üçün də müavinətin artırılması gündəmdə...

**Yaxın zamanlarda üç yaşına qədər olan uşaqlara verilən sosial müavinətlərin artırılması məsələsinə baxıla bilər. Bu sözləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin ötən iclasında komitə sədri Hadi Rəcəbli deyib. Millət vəkili qeyd edib ki, bununla bağlı Prezident İlham Əliyev tapşırıq verib: "Müvafiq qurumlar bu məsələ üzərində işləyirlər.**




*"...uşaqların sosial müdafiəsi baxımından çox vacibdir"*

## Vüqar Bayramov: *"Uşaqlar üçün sosial müavinətin artırılması mərhələli şəkildə həyata keçiriləcək"*

Özünüz də görürsünüz ki, son iki ay ərzində ölkədə sosial müdafiə istiqamətində hansı inqilabi proseslər yaşanır. Əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin, təqaüdlərin artırılması, həmçinin, problemli kreditlər məsələsinin və digər məsələlərin həlli məhz bu tarixi, inqilabi proseslərin tərkib hissəsidir".

Qeyd edək ki, ölkəmizdə 3 yaşadək uşaqların sayı 634.4 min nəfərdir. Belə ki, yaşı tamam olmayan uşaqların sayı 144 min nəfər, 1 yaşda olanlar 157.8 min nəfər, 2 yaşda olanlar 164.4 min nəfər və 3 yaşı tamam olanlar 168.2 min nəfərdir. 3 yaşadək uşaqlara təklif edilən aylıq uşaqpulunun məbləği 50 milyon 752 min manat edir.

Üç yaşına qədər olan uşaqlara sosial müavinətlərin artırılmasını ekspertlər də təqdir edir. Onların fikrincə, vaxtilə ölkədə uşaq anadan olandan 16 yaşına kimi uşaqpulu verilirdi. Bu qaydanın yenidən tətbiq olunması gözlənir. Ekspertlərin fikrincə, uşaqlara müavinətin verilməsi mərhələli şəkildə artırıla bilər. İlk əvvəl üç yaşına qədər olan uşaqlara, daha sonra isə üç yaşdan yuxarı uşaqlara da müavinət verilə bilər.

**İqtisadçı-ekspert Vüqar Bayramov bizimlə söhbətində qeyd etdi ki, Azərbaycan Prezidenti 3 yaşınadək uşaqların sosial müdafiəsinin gücləndirilməsi barədə tapşırıq verib:** "İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) uşaqpulunun bərpası ilə bağlı təkliflərini hökumətə təqdim etməsindən qısa müddət sonra dövlət başçısı tərəfindən belə bir göstərişin verilməsini yüksək qiymətləndiririk. CESD-in təkliflərində də uşaqlar yaş qruplarına görə təsnifləşdirilir və 3 yaşınadək uşaqlara daha çox sosial müavinətin verilməsi xüsusi əsaslandırılır. Bu baxımdan, 3 yaşınadək uşaqlara sosial müavinətin verilməsi uşaqpulunun mərhələli şəkildə bərpası kimi qiymətləndirilməlidir. Bu addım uşaqların sosial müdafiəsi baxımından çox vacibdir".

İqtisadçı onu da əlavə etdi ki, uşaqpulunun bərpa edilməsi vacibdir: "Bu addım xüsusən də gənc ailələrin sosial təminatının daha da gücləndirilməsinə xidmət edəcək. Bu onların xərclərinin bir hissəsinin dövlət tərəfindən qarşılanmasına şərait yaradacaq. Bu baxımdan, Azərbaycan Prezidenti tərəfindən belə bir tapşırığın verilməsi təqdirəlayiqdir. Əslində, 2019-cu ilin ilk iki ayında biz sosial sahədə kifayət qədər ciddi addımların atılmasının şahidi olduq. Güman olunur ki, ilk öncə 3 yaşına kimi olan uşaqlar üçün müavinətlərin bərpası həyata keçiriləcək".

***Günel CƏLİLOVA***




# Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi...

**XXI yüzillikdə - dünyanın "inteqrasiya dalğası" yaşadığı bir dövrdə Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan da istər region ölkələri, istərsə də digər dövlətlərlə dost münasibətlərin qurulması və əməkdaşlıq strategiyasının inkişaf etdirilməsi yönündə ciddi addımlar atmaqdadır. Müstəqillikdən ötən müddət ərzində sözügedən istiqamətdə əldə edilən uğurlar - Azərbaycanın beynəlxalq təşkilatlara üzvlüyü, müxtəlif təyinatlı qlobal forumlara, dünya miqyaslı idman və mədəni tədbirlərə ev sahibliyi etməsi və bu missiyaların öhdəsindən layiqincə gəlməsi nəticəsində ölkəmiz nəinki dünya çapında tanınır, hətta bir sıra qlobal, xüsusən enerji məsələlərində onun mövqeyi eşidilir.**

## Azərbaycanın dünyaya inteqrasiyasında əhəmiyyətli faktorlardan biri - regional üstünlük...

Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyasının əsasında dayanan ən önəmli faktorlardan biri ölkəmizin son illərdə həyata keçirdiyi beynəlxalq layihələr və bu layihələrin nəticəsi olaraq Şərqlə Qərbi birləşdirən tranzit ölkə rolunda çıxış etməsidir. Bakı-Tiflis-Qars dəmir yolunun açılması ilə Asiya ilə Avropanı ən optimal yükdaşıma marşrutu ilə təmin edən Azərbaycan getdikcə bu marşruta daha çox ölkənin diqqətini cəlb etməkdədir. Bunun əsas səbəbi isə həmin marşrutla yüklərin hər iki istiqamətə daha çevik və daha az maliyyə ilə həyata keçirilməsidir ki, bunda udan tərəf rolunda elə Azərbaycan özü çıxış edir. Çünki daha çox yük daha çox gəlir deməkdir. Bundan başqa, ölkəmizin təşəbbüsü və bilavasitə vasitəçiliyilə TAP, TANAP kimi tikilməkdə olan enerji marşrutları da var ki, həmin kəmərlər Azərbaycanı bir çox dövlətlərin maraq dairəsinə gətirib. Beləliklə də Azərbaycan dünya miqyasında özünü etibarlı tərəfdaş kimi təsdiqləyib.

Ümumiyyətlə, gənc ölkə olmasına rəğmən, Azərbaycanın yürütdüyü balanslı siyasət ABŞ-ın və Avropa İttifaqının da diqqətini cəlb edir. O üzdən Qərb özü də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməkdə maraqlıdır. Azərbaycanın geostrategiyasının ana xəttini təşkil edən qonşularla sıfır problem konsepsiyası isə günümüzün ən aktual problemlərindən olduğundan, aparıcı dünya dövlətlərinin diqqət mərkəzində daha çox yer almaqdadır. Hərçənd, zaman-zaman dünya dövlətlərinin bir çox hallarda Azərbaycanın ən ağrılı yeri olan təcavüzkar Ermənistana münasibətdə ikili standartlardan çıxış etdiyinin, nələrinsə və ya kimlərinsə xətrinə həqiqətdən yan keçdiklərinin şahidi oluruq. Bununla belə, Azərbaycan, hər nə qədər ikili standartlarla üzləşsə də, beynəlxalq təşkilatlarla və onların üzvü olan dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlıqda maraqlı olduğunu hər addımda göstərməkdədir.

Əslində, əsasını ötən əsrin 90-cı illərindən götürən inteqrasiya prosesinin aparıcı qayəsini Avropaya çıxış və dünya birliyi ölkələrilə bir sırada dayanma məqsədi təşkil etsə də, Azərbaycan öz siyasətində regional əməkdaşlığa da geniş üstünlük verir. Bu da başadüşüləndir, çünki Azərbaycan regionun ən böyük enerji ehtiyatlarına malik, eyni zamanda iri iqtisadi layihələrin gerçəkləşdirildiyi məkan olduğundan, qonşu ölkələrlə dinc yanaşı yaşama və əməkdaşlıq regionun, beləliklə də beynəlxalq əhəmiyyətli layihələrin təhlükəsizliyinin qarantı kimi çıxış edir. Faktdır ki, bu konsepsiyanın xarici siyasətinin ana xəttini təşkil etməsi nəticəsində müstəqil Azərbaycan dövləti yeni dünya düzənində öz layiqli yerini tutmağı bacardı. Baxmayaraq ki, özü işğala məruz qalmış ölkədir və torpaqlarının 20 faizi hələ də işğal altındadır. Azərbaycanın məruz qaldığı işğal faktı əslində aparıcı dünya dövlətləri tərəfindən də etiraf olunur və ölkəmizin dilbər guşəsi Qarabağda qurulan qondarma rejim bu günə kimi, demək olar, heç bir dövlət tərəfindən tanınmayıb. Bununla belə, yürütdüyü sülhsevər və tarazlı siyasət Azərbaycanı məsələnin hərbi yolla çözümünü ən son variant kimi nəzərdən keçirməyə sövq edir. Burada əsas olan isə regionda təhlükəsizliyin təmin edilməsi məsuliyyətinin dərk olunması və onsuz da narahat dünyamızda daha bir müharibə ocağının yaranmasına səbəb olmamaq kimi humanist bir məqsədin güdülməsidir.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirir ki, ölkəmizin dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi üçün müxtəlif iqtisadi, siyasi, sosial, mədəni layihələr həyata keçirilir: "Biz müxtəlif təşkilatlarla, o təşkilatlara üzv olan dövlətlərlə həm zirvə toplantılarında, həm də keçirilən bütün tədbirlərdə birgə layihələr həyata keçiririk. Mədəni, sosial, humanitar və insani əlaqələr bizim üçün önəmlidir. Bu əlaqələr kifayət qədər dinamikdir, inkişaf edir və gələcəkdə də davam edəcək".

## Müstəqil Azərbaycanın qarşısındakı 3 yol və tarixi seçim...

Əli Həsənov yazır ki, müstəqillik qazanandan sonra Azərbaycanın qarşısında 3 yol var idi: SSRİ-nin tərkibində olan dövlətlərlə inteqrasiyanı davam etdirmək və yalnız postsovet məkanı sisteminə inteqrasiya olunmaq, Avropa İttifaqı, Avropa ölkələri ilə inteqrasiya xəttini seçib daha çox Qərbə - demokratik inkişaf, plüralist cəmiyyət və s. istiqamətində inkişaf etmək və



Asiya, Sakit Okean hövzələrinin daha çox təmsil olunduğu Qoşulmama Hərəkatına qoşularaq müstəqil və daha neytral siyasət yürütmək. Hər 3 seçimin cəlbedici, lakin həm də problemli olduğunu deyən cənab Həsənov Azərbaycanın öz yolu ilə getməyi seçdiyini bildirir:"Bu yolun mahiyyəti Azərbaycan xalqının maraqları üzərində köklənmiş, onun mədəniyyətini, dilini, mentalitetini, milli maraqlarını təmin edən bir dövlət strukturuna malik olmaq və bu dövlət strukturunu bölgə və dünya ölkələri ilə qarşılıqlı faydalı münasibətlərə qoşmaqdan ibarətdir. Daha çox neytral siyasət yürüdərək, bölgədə və dünyada Azərbaycanın maraqlarını təmsil edirik".

Azərbaycanın inteqrasiya siyasətini xarakterizə edən Əli Həsənov yazır ki, bölgədə balanslı, qarşılıqlı faydalı əməkdaşlığa söykənən partnyorluq siyasəti yürüdən Azərbaycan dövləti hazırda həm Avropa Birliyi, həm Rusiya və onun əsas partnyorlarının təmsil olunduğu Avrasiya İqtisadi Birliyi ilə, həm də Qoşulmama Hərəkatı ilə əməkdaşlıq edir və o yerdə ki onların yürütdüyü siyasət Azərbaycanın maraqlarına uyğundur, biz onlarlayıq, o yerdə ki həmin birliklərin, qurumların maraqları Azərbaycanın maraqları ilə üst-üstə düşmür, biz orada özümüzün şəxsi və dövlət maraqlarını təmin eləyən siyasət yürüdürük…

Ümumiyyətlə, yerləşmiş olduğu regionun geosiyasi, geostrateji və iqtisadi baxımdan dünyanın siyasi xəritəsində mühüm əhəmiyyət kəsb etməsi və yürütdüyü balanslı siyasət nəticəsində bölgənin aparıcı ölkəsinə çevrilməsi Azərbaycanın hər zaman qabaqcıl dünya dövlətlərinin baxış bucağında yer almasına səbəb olur. Azərbaycanın həm qonşuluq, həm də istər Qərb, istərsə də Şərq ölkələri ilə olan münasibətlərində yürütdüyü siyasətin ana xəttini isə özünün milli maraqlarını öndə tutmaq strategiyası təşkil edir. Belə olmasaydı, bu gün Azərbaycan dünyada hegemonluq savaşı aparan iki gücdən birini seçmək zorunda qalardı ki, nəticədə bu gün qan qoxulu cəbhələşmənin bir tərəfində durmuş olardı. Lakin Azərbaycan istər ABŞ, istərsə də Rusiya ilə münasibətlərdə elə bir tarazlaşdırılmış siyasət xətti götürdü ki, həm özünün sabitliyini və təhlükəsizliyini qoruya bildi, həm də adıçəkilən ölkələrlə istənilən sahədə əməkdaşlığını davam etdirməkdədir.

## Azərbaycanın qonşuluq siyasətinin əsas qayəsi - sıfır problem...

Eyni sözləri yaxın qonşularımız olan regional ölkələrlə aparılan qonşuluq siyasəti haqqında da demək olar. Faktdır ki, artıq neçə illərdir yaxın qonşumuz İran İslam Respublikası dünya birliyinin tətbiq etdiyi beynəlxalq iqtisadi sanksiyalardan əziyyət çəkir. Onsuz da qlobal iqtisadi böhranın gətirdiyi çətinliklərin təsirini üzərində hiss edən bir ölkənin üstəlik iqtisadi sanksiyalara məruz qalmasının onun durumuna və gələcək inkişafına hansı təsirləri göstərəcəyini təsəvvür etmək çətin deyil. Bir çox ölkələrin dəstək verdiyi bu sanksiyalara, faktdır ki, Azərbaycan istər qonşuluq münasibətlərini, istərsə də humanizmi əsas gətirərək qoşulmadı. Çünki Azərbaycan Prezidenti hər zaman beynəlxalq və dövlətlərarası münasibətlərdə ədalətli yanaşmanın, sabitliyin, təhlükəsizliyin vacibliyini önə çəkərək, terrorizmə qarşı mübarizədə birgə əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edib və onun bu mövqeyi İran kimi ABŞ sanksiyaları altında əzilən ölkə tərəfindən xüsusi razılıqla qarşılanır. Bunu həmin ölkənin mediasında yer alan fikirlər də təsdiq edir. İRNA agentliyi bu xüsusda yazır:"Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin hər zaman İran əleyhinə qoyulan embarqolara qarşı olduğunu və bunu bütün beynəlxalq tədbirlərdə dilə gətirdiyini söylədi". Təbii, belə münasibətlər qonşu ölkələrdə yüksək qiymətləndirilir və gələcəkdə həmin ölkələrlə bütün sahələrdə əməkdaşlığın daha möhkəm təməllər üzərində qurulmasına və inkişafına öz töhfəsini verir. Üstəlik, bu ölkədə hələ də xatırlayırlar ki, cəmi bir neçə il öncə dünya birliyi İslam Respublikasına qarşı sözün həqiqi mənasında silahlananda İlham Əliyev Azərbaycandan bu ölkəyə qarşı platsdarm kimi istifadə olunmasına yol verilməyəcəyini birmənalı şəkildə bəyan etdi. Yüksək səviyyədə verilən bu tip bəyanatlar isə öz həqiqi qiymətini alır və ölkələr arasında istər münasibətlərin, istərsə də əməkdaşlığın daha da inkişaf etdirilməsində baza rolunu oynayır. Çünki hər bir dövlətdə dərk edirlər ki, ölkənin gələcək inkişafı onun daxili sabitliyindən və təhlükəsizliyinin qorunmasından asılıdır. Bu sabitliyin qarantı isə qonşu ölkələrlə balanslı siyasətin qurulmasından, dinc yanaşı yaşama prinsiplərinə əməl olunmasından birbaşa asılıdır. Lakin təbii, qonşu dövlətlər arasında ədavət yoxdursa, onlar bir-birinin daxili siyasətinə qarışmırsa, bu hələ məsələnin tam həlli deyil. Çünki bu halda bu dövlətlərdən birinin, tutaq ki, ərazi bütövlüyünə təhlükə yaranırsa və digər dövlət ona dəstək vermirsə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sivil qaydada onun haqq səsinə səs vermirsə bu da normal qonşuluq siyasəti sayıla bilməz. Bu mənada Azərbaycan, işğala məruz qalan dövlət kimi, məsələnin mahiyyətini daha dərindən dərk edir və qonşu dövlətlərə yönəlik haqsızlıqlara sivil qaydada etiraz etməyi bacarır desək, yəqin ki, mübaliğə sayılmaz. Elə Azərbaycanın xarici siyasət kursunda bu aspektin əsas götürülməsinin nəticəsidir ki, Xocalı soyqırımını uzun illər görməzdən gələn dövlətlər bu gün bu faciəni öz adı ilə çağırır. Bu il fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı kütləvi ümumxalq yürüşündə Rusiyadan böyük bir nümayəndə heyətinin iştirak etməsi, Azərbaycan Prezidentinin bu ölkənin ən populyar telekanallarından olan "Rossiya-24"ə soyqırım barədə Ermənistanı özündən çıxaran geniş ifşaedici açıqlama verməsi və bu müsahibənin nəinki Rusiyada, hətta qonşu Ukrayna və Orta Asiya ölkələrinin televiziyalarında nümayişi dediklərimizə əyani sübutdur.

Prezident İlham Əliyev çıxışlarının birində deyib ki, "Müasir Azərbaycan modernləşməkdə olan demokratik transformasiya, açıq iqtisadiyyat və vətəndaş azadlığı məkanıdır. Bütün bunlar regionda və onun hüdudlarından kənarda bizə olan münasibəti müəyyənləşdirir" və bu reallıqdır. Bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələr reallaşdıran dövlət olaraq qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilir.

Bu gün Azərbaycanın istər beynəlxalq əməkdaşlıq sahəsində, istərsə də tranzit ölkə kimi əhəmiyyəti artıq dünya miqyasında qəbul olunur. Bunun isə praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu şübhəsizdir. Və o da şübhəsizdir ki, Azərbaycan özünün regiondakı nüfuzlu mövqeyini daim inkişaf etdirməklə qlobal inteqrasiya siyasətini bundan sonra da uğurla davam etdirəcək.

***Samirə SƏFƏROVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**




# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Ölkədə fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi istiqamətində müntəzəm olaraq addımlar atılır. Xüsusilə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra bu sahəyə diqqət daha da artdı. Ölkəmiz demokratik cəmiyyətin bir parçası kimi KİV-in, medianın inkişafını başlıca prioritet hesab etdi, bu istiqamətdə məqsədyönlü addımlar atdı, qanunvericilik bazası formalaşdırıldı.**

Məlumat üçün qeyd edək ki, məhz görülən işlər nəticəsində Azərbaycanda çoxlu sayda jurnalist təşkilatı qeydiyyatdan keçdi, onlarla təşkilat söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, KİV-in informasiya əldə etmək imkanlarının genişləndirilməsi, qarşılıqlı münasibətlərin tənzimlənməsi və digər məsələlərlə aktiv məşğul olmağa başladı.

Ölkədə mətbuat yayımı həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı da artdı. Hazırda çoxlu sayda mətbuat yayımı firması paytaxt və bölgələrdə geniş fəaliyyət göstərir. Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı internetin imkanlarının genişlənməsinə şərait yaratdı və ölkədə müasir internet şəbəkəsi formalaşdı. Azərbaycan Prezidenti 17 fevral 2003-cü il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyasını (2003-2012-ci illər) təsdiq etmiş və bununla da qarşıdan gələn dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişaf istiqamətləri müəyyən olundu. Strategiya çərçivəsində "Elektron Azərbaycan" dövlət proqramları qəbul olundu və icra edildi. Ümumdünya İqtisadi Forumunun hesabatına görə, hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 80 faizinə yaxın hissəsini təşkil edir. İnternet provayderinin sayı isə 40-ı keçib. Son illər genişzolaqlı sürətli internet istifadəçilərinin sayı 50 faizə yaxınlaşıb ki, bu da ümumdünya orta göstəricisindən 2 dəfə yüksəkdir. Bölgələrdə internet istifadəçilərinin sayı 12-15 dəfə çoxalıb. Ucqar kəndləri də nəzərə almaqla Azərbaycanın bütün bölgələrində internetdən istifadə etmək üçün şərait yaradılıb. Bu gün 10 milyon əhalisi olan ölkədə 2 milyondan artıq yaxın sosial şəbəkə istifadəçisi var. 2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanıb. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bütün sahələrdə elektron xidmətlər tətbiq ediblər. Elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədilə www.e-gov.az vahid elektron hökumət portalı yaradılıb. Bütün bu atılan addımlar, yuxarıda qeyd etdiyimiz kimi, ölkədə fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinə hesablanıb.



Mətbuatın cəmiyyətin güzgüsü olduğunu nəzərə alsaq, şübhəsiz ki, problemlərlə də bağlı öz sözünü deməlidir. Amma yanaşma obyektiv olmalı, heç bir qərəzə söykənməməlidir. Elə ölkəmizdə demokratik təsisatların, o cümlədən, fikir, söz azadlığının, plüralizmin inkişafı istiqamətində lazım olan bütün tədbirləri həyata keçirən Azərbaycan dövlətinin və cəmiyyətin də istəyi budur.

Mətbuatın vəzifəsi görülən işləri işıqlandırmaq, neqativləri obyektiv qabartmaq, həllini gözləyən məsələlərin çözülməsinə dəstək olmaqdır. Təbii ki, birgə səylər inkişafa, tərəqqiyə böyük yol açır. Bir məqamı da qeyd edək ki, bu gün mətbuat dördüncü hakimiyyət kimi dəyərləndirilirsə, bu artıq media ictimaiyyətini üzərinə düşən məsuliyyəti daha dərindən dərk etməyə çağırır.

Bu gün medianın əsas problemlərindən biri sui-istifadə halları ilə bağlıdır. Bu problem getdikcə azalır. İndi daha çox problem "reket jurnalistika" ilə bağlıdır. Bəzi şəxslərin ayrı-ayrı media qurumları formalaşdıraraq cinayət əməlləri törətməsi ilə bağlıdır ki, burada mətbuatda söz azadlığından sui-istifadədən daha çox mətbuat və söz azadlığının altında gizlənmək istəyi və niyyəti var. Burada açıq şəkildə görünür ki, bu insanlar ictimai-siyasi müstəvidə informasiya siyasəti həyata keçirir və yaxud onların məqsədi cinayətkarlıqla məşğul olmaqdır. Əslində, reketçiliklə məşğul olur və jurnalistika sözünün arxasında gizlənirlər. Ona görə də belələrinə qarşı hər hansı güzəşt etmək olmaz. Belələrinə qarşı hüququn dili ilə mübarizə aparmaq lazımdır.

Azərbaycanda "reket jurnalistika"ya qarşı həyata keçirilən tədbirlər - hüquq-mühafizə orqanları ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən, Azərbaycan Mətbuat Şurası tərəfindən görülən işlər müsbət nəticələr verir.

Son dövrlər reketçilik fəaliyyəti ilə məşğul olan şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması qarşıya qoyulan fəaliyyətin effektivliyinə dəlalət edir. Nəticədə ayrı-ayrı vaxtlarda "jurnalistika" adı altında qanunsuz fəaliyyət göstərmək hallarının, hədə-qorxu yolu ilə kimlərdənsə pul tələb etməyə çalışanların sayı getdikcə azalır. Lakin sirr deyil ki, həyata keçirilən qarşısıalınma tədbirləri ilə "reket jurnalistika" fəaliyyətini tamamilə aradan qaldırmaq hələ ki, tam mümkün olmayıb. Qarşıya qoyulan vəzifələrin ardıcıl, sistemli şəkildə həyata keçirilməsi bu kimi halların qısa zaman ərzində aşkar olunması və təqsirkarların tutularaq istintaqa cəlb olunmasına imkan vrir. Heç şübhəsiz, bu həm də oxşar fəaliyyətlə məşğul olaraq, cəmiyyətdə bu kimi neqativ tendensiyaların yayılmasına zəmin yaradanlara xəbərdarlıq xarakteri daşıyır. Nəticədə reketçilik fəaliyyətini Azərbaycanda "leqallaşdırmağa" çalışanlar və ya ayrı-ayrı işbazların əlində ələltiya çevrilənlər qanunsuz əməllərini həyata keçirərkən bir daha düşünməyə imkan qazanırlar. Bu fürsətdən doğru-düzgün nəticə çıxarmaq isə məsələnin bir başqa tərəfidir. Reallıq onu göstərir ki, cəmiyyətdə media orqanlarının fəaliyyətinin əsasları ilə bağlı kifayət qədər məlumatlılığın olmaması səbəbindən bəzən reketlərin hədəf olaraq seçdiyi şəxslər tələyə düşür, bu kimi halların vaxtında müəyyənləşdirilməsi mümkün olmur və nəticədə "jurnalist" adı altında vətəndaşın külli miqdarda maddi vəsaitini mənimsəyən şəxslər müvəqqəti də olsa, cinayət məsuliyyətindən yayına bilirlər. Ona görə də "reket jurnalistika" ilə mübarizədə daha effektiv nəticələrin əldə olunması üçün cəmiyyətin bu istiqamətdə maarifləndirilməsinə böyük ehtiyac var.

Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqətindədir. Ulu öndər Heydər Əliyevin ölkəmizdə başlatdığı həqiqi söz və mətbuat azadlığının bərqərar olması prosesi onun siyasi varisi İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlət başçısı bu postda fəaliyyətə başladığı ilk gündən mətbuatın inkişafını dövlət siyasətinin başlıca prioriteti kimi elan etdi və fəaliyyətində bu nüansa xüsusi diqqət ayırdı. Azərbaycan milli mətbuatının yaradılmasının yubileyləri münasibətilə ölkənin onlarla jurnalistini ali dövlət mükafatları ilə təltif etdi, kütləvi informasiya vasitələrinə maddi yardımlar olundu. Bütün bu reallıqlar bir daha sübut edir ki, ölkədə azad mətbuat mövcuddur və onun mövcudluğunun qarşısını heç bir qüvvə ala bilməz. Ölkə Prezidenti İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da mətbuatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları haqqında sərəncamların imzalanması əhəmiyyətli addımlardır. Jurnalistlər üçün yaşayış binalarının istifadəyə verilməsi, eyni zamanda, "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamın imzalanması da addımların davamlılığından irəli gəlir. Dövlət başçısı İlham Əliyevin bir neçə dəfə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğu əsasında "Jurnalistlərn dostu" mükafatına layiq görülməsi ötən dövr ərzində mətbuatın inkişafına göstərilən diqqət və qayğıya media ictimaiyyətinin baxışı və verdiyi dəyəridir.

Artıq bu gün ən qatı opponentlərimizin belə etiraf etdiyi kimi, Azərbaycan inkişaf yolunda inamla irəliləyir. Düşünülmüş və məqsədyönlü siyasət uğurların davamlılığını təmin etməklə, gələcəyə daha böyük inamla yanaşmağa stimul verir. Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişafında xüsusi rolu olan media təmsilçiləri də daxil olmaqla, harada yaşamasından, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı uğurlarımızdan qürur duymalı, inkişafa, tərəqqiyə öz töhfəsini verməyə çalışmalıdır. Bu fikri xüsusi qeyd edən dövlət başçısı cənab İlham Əliyev deyib: "Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir Vətəni vardır - Azərbaycan. Hamımız vətənpərvərik, Vətənimizi sevirik. Ola bilər ki, ölkəmizin inkişafı ilə bağlı müxtəlif fikirlərimiz olsun. Bu da təbiidir. Ancaq biz əsas amallar ətrafında daim bir yerdə olmalıyıq".

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

**Məlumdur ki, ölkəmizdə tibbi xidmətlər baha olduğundan, bəzən vətəndaşlar vaxtlı-vaxtında həkimə müraciət edə bilmirlər. Bu səbəbdən də bəzi xəstəliklər vaxtında aşkar olunmadığı üçün, vətəndaşların səhhəti ağırlaşır. Hesab edilir ki, icbari tibbi sığortanın əsas məqsədlərindən biri də bu cür halların qarşısının alınması olmalıdır.**

# Evdar qadınlar üçün 120 manat tibbi sığorta haqqı...



*"İcbari tibbi sığortanın tətbiqi vətəndaşların bu sahədə arxayınçılığına son qoyulması baxımından əlverişlidir"*

## *Adil Qeybulla: "Orta aylıq əməkhaqqı nəzərə alınsa, işləməyən şəxslərlə işləyənlərin tibbi sığortası arasında uyğunsuzluq yaranır"*

Bəllidir ki, gələn ildən vətəndaşlar İcbari Tibbi Sığorta Agentliyinə müəyyən sığorta haqqı ödəyəcəklər. Vətəndaş xəstəxanaya müraciət etdiyi vaxt onun müayinə və müalicə xərcləri Agentlik tərəfindən xəstəxanaya ödəniləcək. Sığorta haqqı işçilərin əməkhaqqından və sahibkarların gəlirlərindən tutulacaq. Qeyri-rəsmi işləyənlər və işləməyən insanlar isə gələn ildən tibbi xidmətlərdən yararlanmaları üçün sabit illik sığorta haqqı ödəməli olacaqlar.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev media nümayəndələrinə açıqlamasında bildirib ki, sərbəst məşğul əhali sığortalanmaq üçün illik 120 manat sığorta haqqı ödəməli olacaq. "Sərbəst məşğul əhali - qeyri-rəsmi işləyənlər, evdar qadınlar və s. Bunlar üçün sabit bir məbləğ tətbiq olunacaq. Yeni qanunla 120 manat sığorta haqqı ödəməli olacaqlar. Bu şəxslər illik 120 manat ödəməlidirlər ki, sığortalı sayılsınlar".

Beləliklə, bütün işləyən şəxslərdən əməkhaqqının 2 faizi qədər, işəgötürənlərdən isə işçilərinə ödədikləri əməkhaqqının 2 faizi qədər sığorta haqqı tutulacaq. Əhalinin müəyyən kateqoriyasının - 18 yaşınadək uşaqların, pensiya yaşında olan vətəndaşların, əlillərin, aztəminatlı ailələrin, tələbələrin və hamilə qadınların sığorta haqlarını dövlət öz üzərinə götürəcək.

Heç bir yerdə işləməyən və hər hansı bir gəliri olmayan işsiz əhalidən, xüsusən də evdar qadınlardan 120 manat tibbi sığorta haqqı tələb olunması **məsələsinə münasibət bildirən professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, icbari tibbi sığortanın tətbiqi vətəndaşların bu sahədə arxayınçılığına son qoyulması baxımından əlverişlidir:** "Sığorta insanların gözləmədiyi hadisələrin baş verdiyi proseslərlə mübarizə aparması üçün kömək məqsədi daşımalıdır. Məlumdur ki, heç kəs bədbəxt hadisələrdən sığortalanmayıb. İcbari tibbi sığorta üçün nəzərdə tutulan məbləğlər kifayət qədər böyük vəsaitdir. Ailə üzvlərinin hər biri üçün vəsait ödənilməsi doğru deyil. Orta aylıq əməkhaqqı nəzərə alınsa, işləməyən şəxslərlə işləyənlərin tibbi sığortası arasında uyğunsuzluq yaranır. Nəzərə almaq lazımdır ki, ölkədə hər kəs 1000 manat maaş almır. Əsasən 500-800 manatdan hesablansa, bu, 100 manat pul edir. Belə olan halda, necə olur, işləyən şəxs 100, evdar qadın isə 120 manat sığorta ödəyir.

Bizim respublikada vətəndaşların yaşayış səviyyəsi nəzərə alındıqda bu, yüksək məbləğlərdir. İl başlayanda tibbi sığorta sənədi almaq istəyən şəxs ailəsində 4 nəfər varsa, təxminən 400 manat pul ödəməlidir. Bu, Azərbaycan vətəndaşının büdcəsi üçün həddindən artıq çoxdur. Hazırda bir çox ailədə bir nəfər işləyir. Heç iki nəfər işləyən ailələrdə əməkhaqları toplandıqda ortaya böyük bir rəqəm çıxmır".

*Günel CƏLİLOVA*

**Azərbaycanda orqan transplantasiyası sahəsində donorluqla bağlı problemin olduğu uzun müddətdir müzakirə olunur. Donorların sayının az olması əməliyyata ehtiyacı olan insanları çətin vəziyyətə salır.**

# İnsan orqanlarının köçürülməsinə dair yeni qanunda nələr olsun...



*"...əhali arasında aparılan təbliğat işi genişləndirilməlidir"*

## *Kamilə Əliyeva: "Yeni qanun layihəsində qohum olmayan şəxslərin də donor olmasına icazə veriləcək"*

Bu sahədə yaşanan problemlərin həll olunması üçün "Orqan transplantasiyası" haqqında yeni qanun layihəsi hazırlanır və bu işlə məşğul olmaq üçün işçi qrupu da yaradılıb.

Qanun layihəsinə bir sıra məsələlərin daxil olması müzakirə olunur. Milli Məclisin Səhiyyə komitəsinin ötən iclasında insan orqanlarının donorluğu və transplantasiyası ilə bağlı dinləmədə komitə sədri Əhliman Əmiraslanov bildirib ki, orqan transplantasiyası ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var.

Yeni hazırlanacaq qanun layihəsinə əlavə olunması üçün bəzi təkliflər səslənir. Onlardan biri qohum olmayan şəxslərin də donor kimi istifadə olunmasıdır. Eyni zamanda, beyin ölümü keçirən şəxslərdən, canlı donorlardan orqanların götürülməsi məsələsi öz əksini tapıb.

**Ümumiyyətlə, "Orqan transplantasiyası" haqqında qanuna hansı əlavələrin olunmasının vacibliyini öyrənmək məqsədilə Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, millət vəkili Kamilə Əliyevaya müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, orqan köçürülməsi ilə bağlı yeni qanun Səhiyyə komitəsi tərəfindən mükəmməl şəkildə hazırlanıb: "Adıçəkilən qanunun tam şəkildə işlək olması üçün əhali arasında aparılan təbliğat işi genişləndirilməlidir. Orqan köçürülməsi ilə bağlı qanun layihəsinin qəbul olunmasını vətəndaşlarımız səbrsizliklə gözləyirlər. Yeni qanunla gözün buynuz qişasının transplantasiyası da mümkün olacaq. Bəllidir ki, anadangəlmə görmə qabiliyyətini itirən şəxslər həyat işığından məhrum idilər. Bu əməliyyat sayəsində anadangəlmə görmə qabiliyyəti olmayan insanlar görə biləcəklər.

Onu da deyim ki, əvvəllər ölkəmizdə orqan köçürülməsi ilə bağlı problem yaşanırdı. Bu əməliyyatın icra olunması üçün vətəndaşlarımız xaricə üz tuturdular. Ancaq sevindirici haldır ki, bu gün orqan transplantasiyası əməliyyatı ölkəmizdə uğurla icra olunur. Qaraciyər, böyrək, ürək köçürülməsi, o cümlədən, talassemiyalı uşaqlarda sümük iliyinin transplantasiyası uğurla həyata keçirilir. Danılmaz faktdır ki, bu gün Azərbaycan səhiyyəsinin inkişafı reallıqdır. Bütün bunlar cənab Prezident İlham Əliyevin apardığı sosial siyasətin nəticəsidir".

Xanım millət vəkilinin sözlərinə görə, orqan köçürülməsi ilə bağlı ölkəmizdə yaşanan yeganə problem donor sayının az olması ilə bağlıdır. Donor canlı insane da ola bilər, eyni zamanda, meyitdən də götürülə bilər. Məlumdur ki, ölkəmizdə meyitdən orqan götürülməsi proseduru hələ istənilən səviyyədə deyil. Bununla bağlı əhali arasında maarifləndirmə, təbliğat işi aparılmalıdır. Bu sahədə kütləvi informasiya vasitələrinin üzərinə böyük yük düşür. Meyitdən sağlam orqan köçürülməsi başqa bir insanın sağlığına qovuşmasına səbəb olacaq: "Qanunda nəzərdə tutulub ki, istənilən şəxs sağlığında orqanının bağışlanılması haqqında vəsiyyət edə bilər. Eyni zamanda, vəfat edən şəxsin yaxınları onun orqanının köçürülməsinə icazə verə bilər. Bu sahədə aparılan təbliğat işləri daha da genişləndirilsə, çoxlu sayda insana ikinci həyat bəxş olunacaq".

K.Əliyeva da onu da vurğuladı ki, yeni qanun layihəsində qohum olmayan şəxslərin də donor olmasına icazə veriləcək. Müəyyən şərtlər daxilində qohum olmayan şəxslər donor ola bilər.

*Günel CƏLİLOVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ASEYXANOV NAZİR PİRMƏHƏMMƏD (PİRMƏMMƏD) oğlu**



20 oktyabr 1958-ci ildə Rusiya Federasiyası Dağıstan Respublikasının Qasımkənd rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Azərbaycan Respublikası Bakı şəhəri Qaradağ rayonunun Sahil qəsəbəsində yaşamışdır. Qaradağ RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aseyxanov Nazir Pirməhəmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 mart 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aseyxanov Nazir Pirməhəmməd oğlu 26 mart 1993-cü il tarixində Ağdərə rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aseyxanov Nazir Pirməhəmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV ƏLQƏMƏ QAÇAY oğlu**



21 noyabr 1961-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonunda doğulmuşdur. İtkin düşənə qədər Füzuli rayonunun Yuxarı Yağləvənd kəndində yaşamışdır. Mülki şəxs. Aslanov Əlqəmə Qaçay oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələri tərəfindən 23 avqust 1993-cü ildə Füzuli rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Əlqəmə Qaçay oğlu 23 avqust 1993-cü il tarixində erməni silahlı birləşmələri Füzuli rayonunu işğal edən zaman Qaraxanbəyli kəndi ərazisində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanov Əlqəmə Qaçay oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV XƏQANİ KAZIM oğlu**



18 avqust 1955-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağdam rayonunun Şelli kəndində yaşamışdır. Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Xəqani Kazım oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Xəqani Kazım oğlu 16 iyun 1992-ci il tarixində Ağdam rayonunun Sırxavənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Xəqani Kazım oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV İBADƏT BAHADUR oğlu**



14 yanvar 1960-cı ildə Azərbaycan Respublikasının İmişli rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İmişli rayonunun Telişli kəndində yaşamışdır. İmişli RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov İbadət Bahadur oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 7 may 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov İbadət Bahadur oğlu 7 may 1994-cü il tarixində Tərtər rayonunun 3-cü sovxoz adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aslanov İbadət Bahadur oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV İLYAS NƏSRƏDDİN oğlu**



2 oktyabr 1962-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Fərzalı kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Aslanov İlyas Nəsrəddin oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 13 iyun 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov İlyas Nəsrəddin oğlu 13 iyun 1993-cü il tarixində Ağdərə rayonunun Madagiz kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq ərazini tərk edə bilmədiyi ehtimal olunur.

Aslanov İlyas Nəsrəddin oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Naxçıvanskilər Ali Baş Komandanına hər zaman sadiqdir!



**Mən 2016-cı ildən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıram. Artıq üçüncü ildir ki, bu liseydəyəm. Mənim üçün bu lisey çox doğmadır, o mənə çox şey qazandırdı. Ən gözəl dostluqları və sirdaş deyə biləcəyim dostlarımı burda qazandım. Eləcə də əsl vətənpərvərlik ruhunda böyüdüm burda.**

Vaxtilə bu Liseyi yaratmaqda ulu öndər Heydər Əliyevin məqsədi, bütün əngəllərə baxmayaraq, məhz Azərbaycan xalqının döyüşkənlik ruhunu yüksəltmək, milli zabit kadrların yetişdirilməsi idi. Onun uzaqgörən siyasəti nəticəsində bu gün bizim liseyin məzunları orduya komandanlıq edir.

Bugünkü ordumuzun hərbi arsenalı müasir texnikalarla təchiz olunub. Cənab Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin orduya göstərdiyi qayğı təqdirəlayiqdir. Bütün tələblərə cavab verən tam müasir orduya malik olmağımız onun fəaliyyətinin nəticəsidir. Bu texnikaları idarə etmək üçün savadlı zabit kadrlara ehtiyac duyulur. Əlbəttə ki, bunun üçün kifayət qədər savadlı zabitlərimiz var. Və bu zabitlərin əksəriyyəti doğma Liseyimizin məzunlarıdır. 2016-cı ilin Aprel döyüşlərində əldə edilən qələbədə də Liseyimizin məzunlarının payı var.

Bizim liseyin Milli Qəhrəmanları, general və admiralları var. Cənab nazirimiz, general-polkovnik Zakir Həsənov da bizim liseyin məzunudur. Biz öz liseyimizlə fəxr edirik! Naxçıvanskilər bir arzuyla, bir amalla yaşayırlar. Bizim arzumuz odur ki, buranı bitirib ali məktəbə daxil olaq. Gələcəkdə savadlı zabit kimi ordu sıralarında yüksələk, General olaq!

Biz Naxçıvanskilər Mübariz kimi, Murad Mirzəyev kimi qəhrəman olmaq istəyirik. İstər quruda, istər havada və istərsə də suda düşmənlə vuruşmağa qadir ordunun tərkib hissəsi olmaq istəyirik... Bu şərəfli hərb peşəsinin şərəfli, cəsarətli, gözümlü, iradəli zabitləri olmaq istəyirik. Bunun üçün komandirlərimizin tələblərinə riayət etməli, müəllimlərimizin bizlərə öyrətdiyi bilikləri dərindən mənimsəməliyik. Biz Vətənimizi, dövlətimizi canımız qədər sevirik. Öz milli-mənəvi dəyərlərimizə sadiq gənclərik. Naxçıvanskilər Ali Baş Komandanına hər zaman sadiqdir və bu hər zaman da belə olacaq. Hər şey Vətən üçün! Axan qan bayraq üçün! Biz bu şüarlarla xidmət edirik...

***Tapdıq MANSUROV***
***Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 2-ci kurs kursantı***

# İsrafçı toy adətlərimizə biri də əlavə olunur - "ciyər axşamı"ndan narazılıq böyüyür

**Sözsüz ki, ulularımızdan qalan adət-ənənələri yaşatmaq bizim mənəvi borcumuz olsa da, bəzi ənənələrin ifrat formada davam etdirilməsi yolverilməzdir. Toy xalqımızın qədim adətlərindən biridir və məişət tariximizdə müstəsna rolu var. Lakin toyaqədərki müəyyən adətlərin hələ də qorunması insanlara həm mənəvi, həm də maddi cəhətdən zərər vurması gizlin deyil.**



***Zümrüd İsayeva:*** *"Bir neçə ziyalı, tanınmış adam toydan əvvəl evində "ciyər axşamı" keçirməsə, başqaları da yavaş-yavaş bu qondarma dəbdən imtina edəcəklər"*

***İlhamə Qəsəbova:*** *"Toy sahibinə hərtərəfli zərər vuran bu dəbin sıradan çıxarılması vacibdir"*

Elə götürək son illər dəbə çevrilən "ciyər axşamları"nı. Axır zamanlar toydan bir gün əvvəl toy evində keçirilən "ciyər axşamı" artıq bir ənənə halını alıb. Bəzən "ciyər axşamı"nı restoran və şadlıq evlərində, xüsusi mərasim obyektlərində də keçirirlər. Bu mərasimin tarixi ənənəsi olduğunu iddia edənlər bildirirlər ki, toydan əvvəlki mərasimlərdən biri kimi bunun keçirilməsi vacibdir. Əslində isə bunun dəbə çevrilməsi olduqca mənfi tendensiyadır. Ümumiyyətlə, əvvəlki dövrlərdə, yəni 20-30 il bundan əvvələ qədər toydan əvvəl belə bir mərasim olmayıb. Bunu toy adətlərimizə peyvənd edənlərin hansı məqsədlər güdməsi məlum deyil, aşkar görünən budur ki, bu mərasimin keçirilməsi gərək deyil. Fakt budur ki, toya aid olan tarixi ənənələrin bir çoxunu "artıq xərcdir, israfçılıqdır" deyib sıxışdırıb sıradan çıxarırıq, lakin toya aidiyyəti olmayan "ciyər axşamı" kimi qondarma törəni ənənə səviyyəsinə qaldırırıq. Onu da bildirək ki, "ciyər axşamı"nın keçirilməsi əhalidə də ciddi narazılıq doğurur. Xüsusən də bölgələrdə daha təm-təraqlı qeyd edilən "ciyər axşamları"na az qala bir toya çəkilən qədər xərc çəkilir, yemək-içmək süfrəsi açılır. Sanki insanlar bir toy məclisində iştirak edirlər. Kənd yerlərində təşkil edilən və artıq Bakı və digər şəhərlərdə də geniş vüsət alan "ciyər axşamı"nda gənclər yeyib-içəndən sonra səhərə qədər müxtəlif oyunlar oynayırlar. Hətta burada elə mənzərələr yaşanır ki, bu hadisəyə sonra hüquq müstəvisində qiymət verilir. Sirr deyil ki, bəzən bir-birilə sözü düz gəlməyən gənclər bıçaqlaşmaya qədər gedib çıxırlar, işin sonu isə, dediyimiz kimi, polisə düşməklə nəticələnir. Bu da sözsüz ki, toy sahibində həm qanqaraçılıq yaradır, həm də ona maddi və mənəvi ziyan vurur.

Heç şübhəsiz ki, "ciyər axşamı" kimi qondarma ənənənin aradan qaldırılması və əhalinin narazılığına son qoyulması olduqca vacibdir.

**Sosioloq Zümrüd İsayevanın bildirdiyinə görə, bu mənfi ənənənin aradan qaldırılması vacibdir.** O hesab edir ki, kəndlərdə, şəhərlərdə nüfuz sahibi olan insanlar, ziyalılar konkret nümunələr göstərməlidirlər. Onun sözlərinə görə, bir imkanlı şəxs, ziyalı, tanınmış adam evində "ciyər axşamı" keçirməkdən imtina etsə, bu nümunəni başqaları da tətbiq edəcək. "Bilirsiniz, bizdə şəxsi nümunələr çox azdır. Rayon və kəndlərdə imkanlı adamlar toydan bir gün əvvəl evində "ciyər axşamı" təşkil edirsə və bunu toy səviyyəsinə qaldırırsa, bu çox mənfi haldır. Bizdə camaat yaxşı nümunələrə deyil, pis nümunələrə daha çox maraq göstərir. Bu birmənalı olaraq belədir. Əslində, "ciyər axşamı"nı elə imkanlı şəxslər dəbə salıb və kasıblar da onlardan geri qalmamaq üçün bu "ənənəni" davam etdirirlər. "Ciyər axşamı"na çox böyük xərc çəkirlər. Bu başdan-başa israfçılıqdır. İnsanlar bilmirlər toy etsinlər, yoxsa əllərindəki pulu "ciyər axşamı"na xərcləsinlər ki, qonaqlar onlardan razı qalsın. İnanın ki, "ciyər axşamı" insanlarda böyük narazılıq yaradır, sadəcə, heç kəs birinci olub bundan imtina etmək istəmir. Hesab edirəm ki, bu məsələdə ictimaiyyət özü aktiv olmalıdır. İmkanlı şəxslər, ağsaqqallar, ziyalılar şəxsi nümunə göstərməlidirlər. Bilirsiniz, bir neçə ziyalı, tanınmış adam toydan əvvəl evində "ciyər axşamı" keçirməsə, başqaları da yavaş-yavaş bu qondarma dəbdən imtina edəcəklər. Düşünürəm ki, sosioloqlar da əhali ilə maarifləndirici söhbətlər aparmalıdırlar. Qondarma adət və dəblərin məişətdən kənarlaşdırılması yolları ilə bağlı ictimai müzakirələr keçirilməli, əhali maarifləndirilməlidir"- deyə Z.İsayeva bildirdi.

**Filologiya üzrə fəlsəfə doktoru, folklorşünasalim İlhamə Qəsəbova da hesab edir ki, xalqımızın toy adətlərinə pərçimlənən bir sıra nəsnələr var ki, onlar insanlara maddi və mənəvi zərər bahasına başa gəlir.** İ.Qəsəbovanın sözlərinə görə, bəzən əsas adətləri unuduruq və onların yaratdığı boşluqları isə qondarma adətlərlə doldururuq. "Son zamanlar dəb halını alan "ciyər axşamı"nın keçirilməsi həqiqətən də insanlara maddi və mənəvi zərər vurur. Adətlərimizdə toydan əvvəl evdə yemək süfrəsi açılardı, orada isə yalnız ailə üzvləri, toya uzaqdan gələn qonaqlar iştirak edərdilər. Bu gün bu tamam başqa bir şəkil alıb. "Ciyər axşamı"nı hazırda az qala bir toy səviyyəsində keçirirlər, burada musiqiçilər iştirak edir, çal-çağır olur. Toy sahibinə hərtərəfli zərər vuran bu dəbin sıradan çıxarılması vacibdir. Çünki bu, əhalinin ürəyindən olardı" - deyə alim bildirdi.

*İradə SARIYEVA*

# Narkotik, qanunsuz silah gəzdirmə, maşın qaçırma... cinayəti törədənlər polisdən qaça bilmədi

**Ağcabədi Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdiyi əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayət görə məhkum olunmuş İ.Həsənov saxlanıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib.**




Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə polis əməkdaşları onun yaşadığı evdən əlavə olaraq çəkisi 6 kiloqram 100 qram marixuana aşkar edərək götürüb.

Faktla bağlı cinayət işi başlanıb.

Xətai RPİ-nin 37-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini M.Fərhadov martın 12-də günorta saatlarında Mingəçevir küçəsindən "Hyundai" markalı avtomobilinin qaçırıldığını bildirib.

Polisin keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini olan yeniyetmə paytaxtın Nizami rayonu M.X.Şərifli küçəsində avtomobillə birgə saxlanıb.

Xətai Rayon Polis İdarəsində araşdırma aparılır.

Suraxanı RPİ-nin 33-cü Polis Bölməsi əməkdaşlarının daxil olmuş müraciətlər əsasında keçirdiyi əməliyyat-axtarış tədbiri nəticəsində dələduzluq yolu ilə Bakı şəhər sakinləri olan 12 nəfərin pullarını almaqda şübhəli bilinən paytaxt sakini E.Kərimov saxlanıb.

Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdiyi əməliyyat tədbiri nəticəsində üzərində qanunsuz silah gəzdirməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər soyğunçuluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş Ş.Ağazadə saxlanıb.

Ondan nömrəsi silinmiş "Varnan" markalı tapança və 2 ədəd patron götürülüb.

Araşdırma aparılır.

Martın 12-də Nazirliyin Baş İctimai Təhlükəsizlik İdarəsi və Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının rayon ərazisində keçirdiyi reydlər nəticəsində 3 köşkdə satıcıların yetkinlik yaşına çatmayanlara tütün məmulatı satması faktları aşkar edilib.

Polis əməkdaşları tərəfindən həmin satıcılar barəsində İnzibati Xətalar Məcəlləsinin 455.2-ci maddəsinə əsasən (Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə) protokollar tərtib olunub.

Bu istiqamətdə reydlər davam etdirilir.

## 8 il əvvəl baş vermiş cinayətin üstü açıldı

**DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Astara Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri zəruri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 2011-ci il aprel ayının 18-də rayonun Pensər kənd sakini K.İsmayılovaya məxsus yaşayış evindən 2775 manat dəyərində qızıl-zinət əşyalarını oğurlayan şəxs müəyyən edilib.**

Araşdırmalarla oğurluğu törədən şəxsin sonradan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 128 ( Qəsdən sağlamlığa yüngül zərər vurma), 177.2.2 (Oğurluq, təkrar törədildikdə), 177.2.3 (Oğurluq, yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə), 177.2.4 (Oğurluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 181.2.2 (Quldurluq, təkrar törədildikdə), 181.2.5 (Quldurluq, silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törədildikdə), 182.2.2-ci (Hədə-qorxu ilə tələb etmə, təkrar törədildikdə) maddələri ilə təqsirli bilinərək azadlıqdan məhrum edilmiş və hazırda cəzaçəkmə müəssisəsində cəza çəkən Lerik rayon sakini Yaşar Şəfiyev olduğu məlum olub.

Faktla bağlı araşdırma aparılır.

## Pirallahıda silahlı şəxs saxlanıb

**Pirallahı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində Lənkəran rayon sakini Xəyal Xəlilov Dübəndi bağlar massivində dəniz kənarında polislər tərəfindən şübhəli şəxs qismində saxlanıb.**

Şöbədə onun üzərində şəxsi axtarış aparılan zaman 1 ədəd "Makarov" markalı tapança, sandıqça və 4 ədəd patron aşkar olunaraq maddi sübut kimi götürülüb. Saxlanan şəxs silah-sursatı bir müddət əvvəl yaşadığı Dübəndi bağlar massivində tapdığını və həmin gündən bəri polisə könüllü təhvil verməyərək üzərində daşıdığını bildirib.

Faktla bağlı Pirallahı Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq tədbirləri davam etdirilir.

№ 49 (3947) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

14 MART 2019-cu il

www.baki-xeber.com

## "Nar" 2018-ci ilin yekunları ilə bağlı hesabatını açıqladı

**Azərbaycanın ən gənc mobil operatoru "Nar" 12 il ərzində əldə etdiyi nailiyyətlər və 2018-ci ilin yekunları ilə bağlı hesabatını açıqlayıb. Media nümayəndələrinin iştirakı ilə keçirilən mətbuat konfransında çıxış edən "Azerfon"un baş icraçı direktoru Qunnar Panke bildirib ki, mobil operator ötən il ərzində bir çox göstəricilər üzrə yüksək nailiyyətlər əldə edib.**

Baza stansiyalarının sayını sürətlə artıran və hazırda ölkədə ən geniş şəbəkələrdən birinə malik olan "Nar" 2018-ci ildə 170 3G, 800-dən çox 4G baza stansiyası quraşdırıb. Bununla da 2018-ci il üçün planlaşdırılan 3G baza stansiyalarının sayı 2600-ü keçib, 4G baza stansiyalarının sayı isə 1700-ün üzərindədir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 47 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub."Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksək keyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 68 % artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 150% artaraq, 500 min nəfəri ötüb.

"Nar"ın göstərdiyi yüksək keyfiyyətli xidmət və sərfəli qiymət sayəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artaraq, 2,2 milyondan çox olub. Abunəçi bazasının 56%-i paytaxt Bakının, 44%-i isə regionların payına düşür. "Nar" abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı son 1 il ərzində 27% artıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon istifadəçilərinin 38%-i regionların, 62%-i isə Bakının payına düşür.

"Azerfon"un baş icraçı direktoru Qunnar Panke 2018-ci il ərzində "Nar"ın əldə etdiyi nailiyyətləri və 2018-ci ilin yekunlarını yüksək qiymətləndirib: "Nar" olaraq əsas hədəfimiz paytaxtla yanaşı, regionlarımızda da şəbəkəmizi daha da gücləndirməkdir. Bu il 700-dən artıq 4G baza stansiyası quraşdırmağı hədəfləmişik. Bütün ölkə boyunca şəbəkəmizi gücləndirməklə, abunəçilərimizin tələblərinə uyğun məhsullar təklif etməklə bazarda payımızı 22% artırmağa nail olmuşuq".

"Nar" ötən il ərzində satış üzrə də yüksək nailiyyətlər əldə edib. 2017-ci il ilə müqayisədə satış üzrə 17% artım müşahidə olunub. Mobil operator pərakəndə satış üzrə 22%, səyyar satış komandasının yaradılması ilə ucqar kənd və ərazilərdə 171% artıma nail olub. Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 570-dən çox yeni korporativ şirkət cəlb edib.

"Nar"ın müştərilərə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində sürətli artım müşahidə olunub. Müstəqil araşdırma şirkətləri tərəfindən aparılan bir neçə sorğunun nəticəsinə əsasən, son 1 il ərzində "Nar" müştəri loyallığı indeksi üzrə 45% artım qeydə alınıb. Bundan başqa, son 1 il ərzində mobil internet məmnuniyyət göstəricisi üzrə 16% yüksəliş qeydə alınıb. Abunəçilərin fikrinə əsasən, "Nar" mobil internet sahəsində liderdir.

2018-ci il ərzində mobil operatorun təqdim etdiyi məhsullarla - "Nar TV", "Nar MiFi", "Nar Wi-Fi" ilə abunəçilər innovativ xidmətlərdən yararlanmaqla yanaşı, sərfəli qiymətə yüksək sürətli internetə çıxış əldə edib, xaricə səyahətə çıxan abunəçilər üçün yeni sərfəli rominq paketləri təqdim edib. Bundan başqa, mobil operatorun təqdim etdiyi "Full" paketləri ilə abunəçilər ay ərzində topladıqları bonusları növbəti aylara keçirir və qalıq bonusların dəyişdirilməsi funksiyasından - "Çevir" xidmətindən yararlana bilirlər.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.

## "Azercell" tələbələrə uğurlu karyera qurmaqda yardımçı olur

**Fəaliyyəti boyunca daim tələbələrə dəstək olmaq məqsədilə müxtəlif proqramlar keçirən və karyera sərgilərində iştirak edən "Azercell Telekom" MMC növbəti dəfə tələbələrə uğurlu karyera qurmaqda yardımçı olub.**




Şirkət Bakı Ali Neft Məktəbi (BANM) və ASAN Könüllülük Məktəbinin "ASAN kadr" karyera mərkəzinin birgə təşkil etdiyi 2-ci "Karyera sərgisi"ndə iştirak edib. Əmək bazarında fəaliyyət göstərən aparıcı qurumların və yüzlərlə gəncin qatıldığı sərgidə "Azercell"in İnsan Qaynaqları Departamentinin mütəxəssisləri işə qəbul olunmaq istəyən məzun və tələbələrin suallarını cavablayıb, şirkətdə mövcud olan vakansiyalar, xüsusi olaraq tələbələr üçün keçirilən Tələbə Təqaüd Proqramı və təcrübə proqramları barədə geniş məlumat təqdim ediblər.

Qeyd edək ki, sərginin əsas məqsədi savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin işlə təmin olunmalarına dəstək göstərmək, onlara müəssisələrdə mövcud iş vakansiyaları ilə yaxından tanış olmaq üçün şərait yaratmaqdır.

Daim gənclərin inkişafına yönəldilmiş layihələri ilə seçilən "Azercell" şirkəti bu istiqamətdə fəaliyyətini gələcəkdə də davam etdirəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Bakcell"dən gənclərin məşğulluğunun artırılmasına növbəti töhfə

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti"ASAN Kadr" Karyera mərkəzinin 2-ci Karyera sərgisində iştirak edib.**



Bakı Ali Neft Məktəbində keçirilmiş sərgidə, ümumilikdə, 80-dən çox müəssisə təmsil olunub. Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat verməsi üçün şərait yaratmaqdır.

Sərgi zamanı gənclərə "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir.

Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanırlar.





**Qoç** - Ötənlərdə baş vermiş hadisələrdən biri indi sizi ciddi narahat edəcək. "Qordi düyünü" təsiri bağışlayan çətinliyi həll etməyə başlayın. Gərəkli sonuc əldə edilənədək çalışın. Yeni işə başlamayın: problemlər heç az deyil.



**Buğa** - Maddi perspektivlərinizi dəqiqləşdirin. Sərfəli olmayan, mənfəət vəd etməyən işləri dayandırın. Çoxlu qüvvə və vaxt tələb edən, amma əvəzində kiçik irəliləyiş perspektivlərinə malik prosesdən kənara çəkilin.



**Əkizlər** - Ziddiyyətlər və əksikləri, fikir ayrılıqları və təreddüdləri ağır problemlər saymayın. Mövqelərinizin dayanıqlı olmasına çalışın. Fəaliyyətinizin effektivliyinin dayanıqlı olması üçün zəruri tədbirlərin görülməsinə ehtiyac var.



**Xərçəng** - Eyni vaxtda bir neçə işlə məşğul olsanız, mövqelərinizi itirə bilərsiniz. Maraq dairənizi bir qədər məhdudlaşdırın. Bütün işləri başa çatdırmaq mümkün deyil. Xəyallara qapılmayın.



**Şir** - İkinci dərəcəli məsələlərin pərdələdiyi əsas məqamı görməyə çalışın. Ümumi ab-hava gərgindir. Ətrafdakı insanlar arasında münaqişələrin yaranması istisna deyil. Reaksiyanız sərt olmasın.



**Qız** - Məqsədlərinizlə məramlarınız dəyişə bilər. Qarşınıza qoyduğunuz hədəfə çatmaq üçün güc, vasitə və ya gərəkli insanların diqqəti yetərsizdir. İndi nəyisə yenidən təşkil etmək çox çətindir.



**Tərəzi** - Uzaqgörən olmağa çalışın. Gərgin situasiyaya rəğmən sağlam məntiq çərçivəsində hərəkət edin. Durumun çətinliyini instiktiv olaraq anlayın. Çalışdığınız insanların emosional durumunu qulaqardına vurmayın.



**Əqrəb** - Cari işlərlə məşğul olun, köklü və önəmli yeniliklərlə bağlı tələsik qərar verməyin. İlk baxışda görünməyən təfərrüatlara fikir verin. Yaxın ətrafınızdakı insanların davranışlarını nəzərdən qaçırmayın.



**Oxatan** - Yaxın ətrafınızdakı insanların emosional durumunu nəzərə alın. Yeni münasibətlər və tərəfdaşlıq formatı yaratmaq olar. Harada səhv etdiyinizi anlamağa çalışın. Şəxsi münasibətlərdə təəssüf, pərişanlıq yarana bilər.



**Oğlaq** - Əldə etdiyiniz nəticələri diqqətlə nəzərdən keçirin. Qeyri-məhsuldar işlə məşğul olduğunuzu görsəniz, təcili qərar qəbul edin. Önəmli istiqamətdə uğur qazanmaq üçün imtina etməyiniz gərəkən məqamları seçin.



**Dolça** - Günün ilk yarısı böyük səylər və diqqətin əsas işə yönəldilməsini tələb edir. Cari proseslərdən kənarlaşaraq şəxsi maraqlarınızın təminatı üçün asudəlik aramayın. Gərəkli işi vaxtında görməmək riski yaratmayın.



**Balıqlar** - Başqalarının mənafelərini üstün tutaraq öz maraqlarınızı ikinci dərəcəli saymayın. Yaşamınıza müdaxilə edən hadisələr və proseslər sizi təbdən çıxarmamalıdır. Ehtiyatı əldən verməyin, məntiqli davranın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Elan

Fərhadov Cəfər Sabir oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müslümov Zakir Xerulla oğlunun adına Binəqədi rayonu, Novxanı ərazisində 1079 g saylı bağa verilmiş 38215 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.

Hüseynova Eleonora Məcidovaya məxsus, Bakı şəhəri, ev 23, mənzil 6 və Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 1093 a saylı bağ ünvanlarına verilmiş çıxarışlar (kupça) itdiyi üçün etibarsız sayılır.

Mansurov Zaur Mansur oğluna Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyev İslam Böyükağa oğlunun adına, Qırmızı Şərq-Hərbi şəhərcik küçəsi, ev 104, mənzil 26 ünvanının qeydiyyat vəsiqəsi (ÖM №172760) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.